www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 20-22 dekabr 2025-ci il Şənbə № 232 (8842) Qiyməti 60 qəpik

**Xəbər**

## Diqqət! Vətəndaşdan xəbərsiz işsizlik pulu tutulur

yazısı səh.10-da

**Gündəm**

### Parlament Amnistiya aktını qəbul etdi



Prezidentin "Konstitusiya və Suverenlik İli" münasibətilə təşəbbüsü minlərlə ailəni sevindirəcək

yazısı səh.5-də

### İrəvanda Zəngəzurla bağlı hərəkətlənmə

yazısı səh.7-də

### Erməni məhbusun arvadından qəribə xahiş - Bakıdan təpki

yazısı səh.6-da

### Paşinyana Vardanyan təhdidi - Azərbaycan onu qaytarsa...

yazısı səh.8-də

### Ölkədə uşaq azalır, işçi qüvvəsi təhlükədə

yazısı səh.15-də

### Azərbaycanlılar üçün ABŞ yolu bağlanır - "Yaşıl kart" qərarı

yazısı səh.2-də

### Paytaxtda ilk: "ağıllı işıqforlar" gəlir - Qəzalar azalacaq?

yazısı səh.14-də

### İki həftə qaldı - Salonlar, bərbərlər və kafelər...

yazısı səh.11-də

### Krediti və borcu olanlarla bağlı mühüm qərar

yazısı səh.12-də

### "Səssiz" gəlib qəfil aparan ölümlər - Genetik amil, yoxsa...

yazısı səh.11-də

# İRƏVANDA BAKI YANACAĞI - TİFLİSƏ XƏBƏRDARLIQ, MOSKVA VƏ TEHRANA İSƏ...

Neft məhsullarımızın Ermənistana nəqli bu ölkənin şimal və cənub qonşularımızdan enerji asılılığını azalda bilər - Rusiya və İran prosesi poza bilərmi?




yazısı səh.9-da

# Abbas Abbasov üçün "Abbasov" nümunəsi - Rusiyadan belə gətiriləcək

Sabiq baş nazirin ekstradisiyası üçün presedentlər var; Kreml onu iki halda təhvil verə bilər; hüquqşünaslar deyir ki...

yazısı səh.3-də




*Deputat:*

### "Avropa Parlamentinin bizə qarşı məqsədi başqadır"

yazısı səh.7-də



### Gültəkin Hacıbəyli Azərbaycana gətiriləcək - anons verildi

yazısı səh.4-də



*Razi Nurullayev:*

### "Sosial şəbəkələri təhqir götürüb"

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 232 (8842) 20 dekabr 2025

# Bu gündən Yeni il yarmarkası başlayır



Bu gündən etibarən Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Aqrar Tədarük və Təchizat ASC-nin təşkilatçılığı ilə sayca 8-ci "Kənddən Şəhərə" Yeni il yarmarkası fəaliyyətə başlayır. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təşkil olunan yarmarka 30 dekabr tarixinədək 10 gün müddətində davam edəcək. Bu barədə Kənd Təsərrüfatı Nazirliyi məlumat yayıb.

Bildirilir ki, yarmarkanın əsas məqsədi kiçik və orta fermer təsərrüfatlarında istehsal olunan məhsulların bazara çıxışını dəstəkləmək, fermerlərə alternativ satış kanalları təqdim etmək və bayram ərəfəsində şəhər sakinlərini yerli, keyfiyyətli və münasib qiymətə məhsullarla təmin etməkdir.

Yarmarkada ölkənin 35 regionundan gələn 80-ə yaxın fermer, təsərrüfatlarında yetişdirdikləri 140-dan artıq məhsul çeşidini satışa çıxaracaq. Yarmarkada satışa çıxarılan məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edir. Məhsulların keyfiyyəti ilə bağlı sualı yaranan vətəndaşlar yarmarkada fəaliyyət göstərən Səyyar Qida Laboratoriyasına müraciət edərək məhsuldan analiz verə bilərlər.

Qeyd edək ki, fermerlər yarmarkada satış üçün yer, piştaxta, tərəzi və digər lazım olan avadanlıqlarla ödənişsiz təmin olunurlar. Yarmarka Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metrostansiyasının çıxışı, Atatürk parkının qarşısı) ünvanında fəaliyyət göstərir.



## Prezident bu yolun təmirinə 1,4 milyon ayırdı

**Abşeron rayonunun Hökməli və Qobu qəsəbələrində avtomobil yollarının əsaslı təmirinə 1,4 milyon manat ayrılıb.**

Musavat.com xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Sərəncamla Abşeron rayonunun Hökməli və Qobu qəsəbələri ərazisində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 1,4 milyon manat ayrılıb.



## Sosial şəbəkə fəallarına həbs və cərimə gəlir

**Cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, lakin fiziki şəxslər üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət edilməyən hərəkətlər xırda xuliqanlıq sayılacaq, inzibati həbs və cərimə tətbiq olunacaq.**

Bu, Milli Məclisin iclasında müzakirəyə çıxarılan İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, belə xırda xuliqanlıq əlli manatdan yüz manatadək məbləğdə cərimə ediləcək, işin hallarına görə, pozuntunun törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda, on beş günədək müddətə inzibati həbs tətbiq olunacaq.

İnternet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində kütləvi nümayiş etdirildiyi halda ictimai mənəviyyatı təhqir edən, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən hərəkətlərin edilməsinə, yeni əxlaqsız ifadələrin səsləndirilməsinə və ya belə məzmun təəssüratı yaradan jestlərin edilməsinə, yaxud insan bədəninin hissələrinin əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd formada göstərilməsinə görə beş yüz manatdan min manatadək məbləğdə cərimə ediləcək, işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda, otuz günədək müddətə inzibati həbs tətbiq olunacaq. Həmin xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə min manatdan iki min manatadək məbləğdə cərimə ediləcək, işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda, bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunacaq.

Həmin maddələrdə göstərilən əməllər Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq ediləcək.

Qeyd edilib ki, son zamanlarda kütləvi nümayiş etdirilməklə sosial şəbəkələrdə cəmiyyətə qarşı hörmətsizlik, mənəvi dəyərlərə uyğun olmayan qeyri-etik paylaşımlar və çağırışların edilməsi ölkəmizdə geniş müşahidə olunur. Bu proses cəmiyyətə təsir edərək milli-mənəvi dəyərlərimizin deqradasiyasını sürətləndirir, xüsusilə yeniyetmə və gənclərə mənfi təsir göstərərək onların davranış modellərində dəyişiklik yaradır. Eyni zamanda, sosial şəbəkələrin istifadəçilərinin diqqətini daha çox cəlb edən paylaşımları önə çıxarmağa əsaslanan iş prinsipi bu cür qeyri-etik paylaşımları sürətlə daha geniş auditoriyaya çatdırır. Nəticədə, yaranan informasiya axını ictimai mənəviyyatımıza ciddi zərər vurur. Mövcud qanunvericilik yalnız müəyyən kateqoriya qadağan olunmuş məlumatlara görə məsuliyyət nəzərdə tutur. Mənəvi dəyərlərin qorunmasını təmin etmək, yeniyetmə və gənclərin zərərli informasiyadan müdafiəsini gücləndirmək, internet mühitində məsuliyyət mexanizmlərini dəqiqləşdirmək və mövcud tənzimləməni təkmilləşdirmək üçün yeni qanun layihəsinin hazırlanması zərurəti yaranıb.

Qanun layihəsi səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib.



## Evdə vurulan iynələrlə bağlı xəbərdarlıq

**Venadaxili iynə vurulması ciddi tibbi prosedur hesab olunur və bu xidmət yalnız yüksək ixtisaslı tibb işçiləri tərəfindən göstərilməlidir. TƏBİB-in sədri Vüqar Bayramov bildirib ki, bu məqsədlə tibb müəssisələrinin birinci mərtəbəsində təcili tibbi yardım otaqları fəaliyyət göstərir. Onun sözlərinə görə, əsas məqsəd vurulan iynələrin həkim nəzarəti altında icra olunmasını təmin etməkdir.**

Vüqar Bayramov qeyd edib ki, evlərə gedən tibb bacıları tam tibbi avadanlıqla təchiz olunmur və bu, risk yarada bilər: "Əgər xəstə gözlənilmədən şok vəziyyətinə düşərsə, ev şəraitində buna müdaxilə etmək mümkün olmaya bilər. Xəstənin həyatı bizim üçün hər şeydən önəmlidir", - deyə TƏBİB sədri vurğulayıb.

## Ali Məhkəmədən Tofiq Yaqublu ilə bağlı qərar

**Dekabrın 19-da Ali Məhkəmədə Milli Şuranın üzvü Tofiq Yaqublunun şikayətinə baxılıb.**



Modern.az xəbər verir ki, T.Yaqublunun şikayəti üzrə iş Ali Məhkəmənin hakimi İlqar Qılıcovun icraatına verilib.

Bu barədə məlumatı T.Yaqublunun qızı Nigar Həzi ictimailəşdirib.

O bildirib ki, dünən prosesdə çıxış edən dövlət ittihamçısı məhkəmədən vəsatətin təmin edilməməsini istəyib.

Hakim İlqar Qılıcov müşavirə üçün vaxt lazım olduğunu əsas gətirərək, məhkəmə tarixini növbəti günlərə təyin edəcəyini deyib.

Apellyasiya Məhkəməsinin T.Yaqublu barəsindəki qərarından təxminən 6 ay keçir.

Qeyd edək ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Tofiq Yaqublu 9 il müddətinə azadlıqdan məhrum ediliblər.Tofiq Yaqublu Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq - külli miqdarda ziyan vurmaqla törədildikdə), 320-ci (rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə), 320.1-ci (Hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və ya qanunsuz hazırlama, yaxud bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama və ya satma) və 320.2-ci (Bu Məcəllənin 320.1-ci maddəsində göstərilmiş belə-bilə saxta sənədlərdən istifadə etmə) maddələri ilə ittiham edilir.



## Azərbaycanlılar üçün ABŞ yolu bağlanır

**ABŞ hakimiyyəti "green card" (yaşıl kart) lotereya proqramını dayandıracaq. Modern.az xəbər verir ki, bu barədə ABŞ Daxili Təhlükəsizlik Katibi Kristi Noem sosial mediada məlumat verib.**

"Braun Universitetində atışma törədən Klaudio Manuel Neves Valente 2017-ci ildə Müxtəliflik Vizası (DV1) immiqrant vizası proqramı çərçivəsində ABŞ-a daxil olub və sonradan daimi sakin olub", - deyə katib bildirib.

Noem həmçinin qeyd edib ki, 2017-ci ildə ABŞ prezidenti Donald Tramp Nyu-York şəhərində "green card" qalibi (DV1 proqramı) kimi ABŞ-a daxil olan İŞİD terrorçusunun 8 nəfərin ölümünə səbəb olan terror hücumundan sonra viza lotereya proqramına son qoyulmasını müdafiə edib.

Katib öz paylaşımında bildirib ki, Prezident Trampın göstərişi ilə ABŞ Vətəndaşlıq və İmmiqrasiya Xidmətlərinə (USCIS) ABŞ vətəndaşlarının təhlükəsizliyinə təhdidlərin qarşısını almaq üçün DV1 proqramını dərhal dayandırmaq tapşırılıb.

Xatırladaq ki, bu il Azərbaycandan 1730 nəfər ABŞ-də yaşamaq icazəsi verən "green card" lotereyasının qalibi olub.



## Balıqçılardan birinin meyiti tapılıb

**Dekabrın 9-da Astara rayonu Şahağac kəndi yaxınlığında Xəzər dənizində itkin düşən 2 balıqçıdan biri - 1999-cu il təvəllüdlü Həsənov Ağadədə Famil oğlunun meyiti FHN-in Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-xilasedicilər tərəfindən suda tapılıb çıxarılaraq aidiyyəti üzrə təhvil verilib. Meyit müayinə olunması üçün Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Lənkəran rayonlararası zona mərkəzinə təhvil verilib. İtkin düşmüş digər şəxs, 1997-ci il təvəllüdlü Həsənov Turan Eyvaz oğlunun axtarışları davam etdirilir.**

YENİ MÜSAVAT
N 232 (8842) 20 dekabr 2025

# Abbas Abbasov üçün "Abbasov" nümunəsi - Rusiyadan belə gətiriləcək

## Sabiq baş nazirin ekstradisiyası üçün əvvəlki presedentlər var; Kreml onu iki halda təhvil verə bilər - hüquqşünaslar çıxış yollarını açıqladı



**Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətində Ramiz Mehdiyev və onun ətrafında formalaşmış çevrə ilə bağlı aparılan istintaqda Abbas Abbasovun cinayət işinə cəlb olunması və barəsində axtarış elan edilməsi prosesin təkcə ayrı-ayrı şəxslərlə məhdudlaşmadığını, dövlət təhlükəsizliyini hədəf alan sistemli fəaliyyətin araşdırıldığını göstərir. Məsələ artıq daxili siyasi mübarizə müstəvisindən çıxaraq, xarici əlaqələr, maliyyə axınları və koordinasiyalı fəaliyyət şübhələri fonunda çoxşaxəli təhlükəsizlik istintaqına çevrilib.**

İstintaq materiallarından aydın olur ki, Ramiz Mehdiyev təkbaşına hərəkət edən fiqur kimi deyil, uzun illər ərzində formalaşdırılmış daxili və xarici əlaqələr şəbəkəsinin mərkəzi koordinasiya nöqtəsi kimi qiymətləndirilir. Bu kontekstdə Abbas Abbasovun adı xüsusi çəkilir. İstintaqın versiyasına görə, Abbasov xaricdə - xüsusilə Rusiyada - maliyyə resurslarının yönləndirilməsi, diaspora strukturları üzərindən təsir mexanizmlərinin qurulması və əlaqələndirmə xəttinin icraçısı olub.

Abbas Abbasovun uzun müddət Rusiya ərazisində yaşaması, oradakı azərbaycanlı diaspor təşkilatlarında təsir imkanları əldə etməsi və qalmaqallı "Milyarderlər İttifaqı"na rəhbərlik etməsi istintaq üçün təsadüfi faktor sayılmır. Toplanmış materiallarda xaricdən Azərbaycana yönəlmiş maliyyə axınları, ölkə hüdudlarından kənarda keçirilmiş qapalı görüşlər, audio və video sübutlar, habelə konstitusion quruluşun zorakı yolla dəyişdirilməsi cəhdlərinə dair iddialar xüsusi yer tutur. Bu faktlar işi sırf siyasi ambisiya və ya şəxsi qarşıdurma kimi deyil, planlı və mərhələli fəaliyyət kimi təqdim etməyə imkan verir.

Məhz bu yanaşma Ramiz Mehdiyev barəsində Cinayət Məcəlləsinin 278-ci (hakimiyyətin zorla ələ keçirilməsi), 274-cü (dövlətə xəyanət) və 193-1-ci (cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması) maddələrinin irəli sürülməsində hüquqi əsas rolunu oynayır. Abbas Abbasovun istintaqda fiqurant kimi önə çıxması isə bu maddələrin yalnız daxili şəbəkə ilə deyil, xarici dayaq nöqtələri ilə əlaqələndirildiyini göstərir.

Abbas Abbasovun Rusiya vətəndaşı olması onun ekstradisiyasını hüquqi baxımdan mürəkkəbləşdirir. Lakin beynəlxalq təcrübə göstərir ki, bu cür hallarda proses tamamilə mümkünsüz sayılmır. "Yeni Müsavat"ın xatırlatdığı kimi, separatçı fəaliyyətinə görə Azərbaycanda axtarışda olan Fəxrəddin Abbasov vaxtilə Rusiyadan ekstradisiya edilmişdi. Digər presedent kimi Zahirəddin İbrahimovun adı çəkilir. O, qanunsuz fəaliyyətlərinə görə Rusiya vətəndaşlığından məhrum edilərək Azərbaycana təhvil verilmişdi.

Bu faktlar onu deməyə əsas verir ki, əgər Rusiya siyasi rəhbərliyi tərəfindən müvafiq razılıq verilərsə, Abbas Abbasovun da vətəndaşlıqdan çıxarılması və Azərbaycana göndərilməsi istisna deyil. Xüsusilə ittihamların ağırlığı, dövlət təhlükəsizliyi və konstitusion quruluşa yönəlmiş iddialar bu ehtimalı artırır. Belə bir ssenari baş verərsə, istintaq Ramiz Mehdiyev dosyesinin xarici əlaqələr qolunu açıq məhkəmə müstəvisində tam şəkildə ortaya qoymaq imkanı əldə edəcək.

Əks halda belə, Abbas Abbasovun beynəlxalq axtarışda qalması və barəsində toplanmış sübutlar istintaqın mahiyyətini zəifləţmir. Əksinə, prosesin miqyasını genişləndirir və iddiaların tək-tək şəxslərdən ibarət olmadığını, koordinasiyalı və sistemli xarakter daşıdığını göstərir.

Bəs belə ağır ittihamlarla barəsində axtarış elan edilən Abbasovun işi necə olacaq? Onun üzərindəki cinayət işinin istintaqı açıq qala bilərmi?

Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri Xəyal Bəşirov "Yeni Müsavat"a mövzu ilə bağlı danışıb. O bildirib ki, A.Abbasov aktiv fəaliyyətdə olduğu dövrdə Azərbaycan vətəndaşı olub və ölkəmizdə yüksək vəzifədə təmsil olunub: "Söhbət onun Baş nazirin birinci müavini olmasından gedir. Həmin dönəmdə o öz səlahiyyətlərindən sui-istifadə edib.

Rusiya və Azərbaycan arasında cinayət törətmiş şəxslərin təhvil verilməsi ilə bağlı sənəd var. Bu sənəd cinayətkarların ekstradisiyası ilə bağlı məsələləri əks etdirir. Mümkündür ki, Rusiya Abbasovu verməsin. Çünki bu şəxslər Rusiya üçün önəmlidir, onlar Rusiyaya bağlı olublar. Əgər Rusiya bu şəxsi Azərbaycana təhvil verməsə, onun cinayət işinə qiyabi formada da baxıla bilər və barəsində həbs qətimkan tədbiri tətbiq edilə bilər. Məhkəmədə baxaraq, onlar barəsində yekun qərar da çıxarıla bilər.

Düşünürəm ki, bu məsələ dövlət üçün həssas mövzudur və bu şəxslərin təhvil verilməsi və istintaqa cəlb edilməsi daha yaxşı olar. Rusiya Azərbaycanla olan münasibətləri daha üstün tutarsa bu, baş tuta bilər. 2022-ci ilin 22 fevralında Azərbaycan prezidenti ilə Rusiya prezidenti arasında Moskvada imzalanmış qarşılıqlı müttəfiqlik sənəd var. Həmin o sənədlə bağlı Rusiya öz öhdəliklərinə riayət edəcəksə, ümid edək ki, onu təhvil verəcək. Lakin Rusiya öz emissarlarını üstün tutarsa, o halda biz də adekvat addımlar atacağıq. Rusiya üçün də kifayət qədər önəmli insanlar ola bilər ki, Rusiyada hər hansısa bir cinayəti törədiblər və Azərbaycana keçiblər və ölkəmizdə gizlənirlər. Belə olan halda bu məsələ layiqli şəkildə cavabını alacaq".

X.Bəşirov bildirib ki, A.Abbasovun təhvil verilməsi cinayət işinin şəffaf araşdırılması baxımından önəm kəsb edir: "Abbasov və cinayət işində adları çəkilməyən bir çox şəxslər dövlət orqanları ilə əməkdaşlıq edərlərsə və dövlətə bu barədə ətraflı məlumat verərlərsə, eyni zamanda hərəkətləri ilə dövlətə əhəmiyyətli zərər verməyiblərsə, o halda dövlət onları məsuliyyətdən azad edə bilər. Onların məsuliyyətdən azad olmaq imkanları var. Abbasovun özü istintaqla əməkdaşlıq edə bilər. Dövlət onun barəsində bunu yüngülləşdirici hal kimi nəzərə ala bilər".

Politoloq Qulamhüseyn Əlibəyli qəzetə bildirib ki, A.Abbasovun Rusiya vətəndaşlığının olması onun başqa bir dövlətə təhvil verilməsini konstitusion qaydada istisna edir: "Həm Rusiya, həm də Azərbaycan konstitusiyasına görə, ölkənin vətəndaşı hər hansısa bir cinayət əməlinə görə başqa dövlətə verilə bilməz. İkili vətəndaşlığı olan şəxslərə münasibətdə də bu tətbiq olunmur. Ümumi qayda belədir ki, A.Abbasov barəsində iş Rusiyanın istintaq komitəsinə göndərilə bilər və komitə işi başa çatdırıb məhkəməyə təhvil verə bilər. Rusiya ilə Azərbaycan arasında qarşılıqlı hüquqi yardım haqqında müqavilə var.

Güman edirəm ki, Abbasovun Azərbaycana birbaşa verilməsi mümkün olmayacaq, lakin İnterpol xətti ilə axtarışa verilə bilər və başqa ölkənin ərazisinə gedərsə, həmin ölkənin ərazisində İnterpol tərəfindən saxlanılıb Azərbaycana gətirilə bilər".

❑ **Şahanə RƏHİMLİ**
**"Yeni Müsavat"**



## Mehdiyev "əl qoymuşdu", sahiblərinə qaytarıldı

**Keçmiş PA rəhbəri Ramiz Mehdiyevin Dövlət Təhlükəsizliyi Xidmətində cinayət məsuliyyətinə cəlb olunmasından sonra onun və yaxın ətrafının ayrı-ayrı iş adamlarına qarşı etdikləri haqsızlıqlar üzə çıxır.**

Gununsesi.info xəbər verir ki, belə bir fakt Gəncə şəhərindəki Yeni Gəncə Tibb Mərkəzi ətrafında baş verib.

Belə ki, Ramiz Mehdiyevin kürəkəni İlham Əliyev Samir və Fərid adlı şəxslərlə birlikdə qurduğu tibb mərkəzindən sonradan onları kənarlaşdırıb.

Ramiz Mehdiyevin ölkəni yönəltdiyi məqamda klinikadan uzaq salınan bu şəxslər qorxularından və perspektiv gözləmədiklərindən heç bir orqana şikayət belə etməyib.

Yalnız Ramiz Mehdiyevin cinayət məsuliyyətinə cəlb olunmasından sonra hərəkətə keçən tərəflər klinikaya sahib çıxa biliblər.

Bildirilib ki, İlham Əliyev sakit şəkildə klinikanı keçmiş sahiblərinə qaytarıb. Hazırda bu tibb müəssisəsinə sahiblənən Samir və Fərid adlı şəxslər isə orada çalışan personalın ötən aylardan qalmış əmək haqlarını ödəmək istəmir.

Belə ki, onlar personala bu borcun İlham Əliyevdən tələb olunmasını tövsiyə edib.

"Yalnız gələcək maaşlarınızı biz ödəyəcəyik" deyə onlara qəti mövqe bildirilib.



## Binalarla bağlı yeni cərimə gəlir

**Binaların enerji effektivliyi üzrə pasportlaşdırılmasına dair öhdəliklərin yerinə yetirilməməsinə görə cərimə müəyyənləşir. Bu barədə məsələ Milli Məclisin dünən keçirilən iclasında müzakirəyə çıxarılan İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.**

Layihəyə əsasən, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" qanunun 17.3-cü maddəsinə uyğun olaraq binaların enerji effektivliyi üzrə pasportlaşdırılmasına dair öhdəliklərin yerinə yetirilməməsinə görə fiziki şəxslər iki yüz manatdan dörd yüz manatadək məbləğdə, vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min manatadək məbləğdə cərimə ediləcək.



# Bolqarıstanda "Şuşa" parkı açılacaq

**Bolqarıstan Prezidenti Rumen Radev azərbaycanlı həmkarı İlham Əliyevi rəsmi səfərə dəvət edib.**

Bunu Rumen Radev Azərbaycan Prezidenti İlham Əliyevə doğum günü münasibətilə ünvanladığı təbrik məktubunda qeyd edib. "Son bir neçə ildə hər dəfə konstruktiv və dostluq mühitində keçən, ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli formatlarda strateji münasibətlərin, səmərəli əlaqələrin, fəal siyasi dialoqun genişlənməsinin təsdiqləndiyi görüşlərimizi məmnuniyyətlə xatırlayıram.

Ümid edirəm ki, Veliko Tırnovo şəhərində Sizinlə birlikdə böyük səylər göstərdiyimiz "Şuşa" parkının açılışı ilə əlaqədar Bolqarıstana uzun müddət gözlənilən səfəriniz ölkəmizdəki mövcud siyasi böhrandan asılı olmayaraq 2026-cı ildə baş tutacaqdır",- o qeyd edib.



# Gültəkin Hacıbəyli Azərbaycana gətiriləcək - anons verildi

**"Azərbaycan qanunlarını pozan hər bir şəxs gec və ya tez mütləq cavab verəcək. Çünki qanun dövlət tərəfindən müəyyənləşdirilmiş ümumi məcburi davranış qaydasıdır və onun əleyhinə getmək olmaz.**

Qanunun əleyhinə fəaliyyət üstəlik millətin, xalqın mənafeyinin əleyhinə yönəlirsə, belə addımlar heç vaxt əfv edilməməlidir. Əslində, Gültəkin Hacıbəylinin timsalında da biz bunu görürük. Şübhəsiz ki, Gültəkin Hacıbəyli Türkiyədə, yaxud başqa ölkədə olsaydı belə, əvvəlcədən məlum idi ki, o, Azərbaycan qanunları qarşısında cavab vermək üçün Azərbaycana gətiriləcək".

Bu sözləri Pravda.az-a deputat Hikmət Babaoğlu deyib. H.Babaoğlu bildirib ki, bu cür cinayətlər həm də vahid şəbəkənin tərkib hissəsi olan cinayətlərdir: "Ramiz Mehdiyevin törətdiyi əməllərdən danışan zaman qarşımıza bir şəbəkə çıxır. Çox maraqlıdır ki, bu şəbəkənin üzvləri əslində zidd qütblərdə görünən qruplaşmalar olsalar da, alt qatda bunlar arasındakı birliyin ortaya çıxması bəlli olur. Bu, Azərbaycanın müstəqilliyinə qarşı nə qədər sistemli və düşünülmüş şəkildə cinayətlərin törədilməsinin planlandığından xəbər verir. Artıq ictimai müstəvidə və publik olaraq Gültəkin Hacıbəyli - Ramiz Mehdiyev əlaqələrini mətbuatdan bilirik. Onların təriflərini və bu təriflər, Azərbaycan əleyhinə göstərdikləri fəaliyyət müqabilində onların bu əməllərinin motivasiya edilməsini, Ramiz Mehdiyev tərəfindən bu cür halların həvəsləndirilməsi üçün maddi təminatın ödənildiyini, evlər verildiyini, ticarət obyektləri üçün imkanlar yaradıldığını görürük. Əlbəttə ki, bütün bunlar da Azərbaycan ictimaiyyətinin diqqətindən yayınmır. Hər biri öz cəzasını tapacaq".

# Razi Nurullayev: "Sosial şəbəkələri təhqir götürüb"

**"Müzakirə etdiyimiz qanun layihəsi cəmiyyətimizdə son illər xüsusilə sosial şəbəkələr vasitəsilə formalaşan yeni və real təhlükələrə hüquqi cavab vermək məqsədi daşıyır deyə düşünürəm. Qanuna edilən dəyişikliyə başqa don geyindirənlər olacaq deyə mən də siyasi partiya kimi mövqeyimi açıqlamaq istəyirəm. Söhbət informasiya azadlığının məhdudlaşdırılmasından deyil, məsuliyyətsiz və zərərli informasiyanın yayılmasının qarşısının alınmasından gedir".**



Bunu deputat, Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev deyib.

O əlavə edib: "Layihənin mahiyyəti mənim üçün ondan ibarətdir ki, internet informasiya ehtiyatlarında və sosial platformalarda kütləvi nümayiş etdirildiyi halda, cəmiyyəti açıq şəkildə təhqir edən, milli-mənəvi dəyərlərə zidd olan, əxlaqsız ifadələrin və yaxud bu cür məzmunun təsirini gücləndirən məlumatların yayılması hüquqi çərçivədə qadağan edilsin.

Bu gün sosial şəbəkələrin reallığı ondan ibarətdir ki, baxış toplamaq, populyar olmaq və ya şəxsi qisas məqsədi ilə ayrı-ayrı vətəndaşlar hədəfə alınır. Bir video, bir paylaşım və ya məqsədli kampaniya insanın şərəf və ləyaqətinə ciddi zərər vura, onun sosial və psixoloji vəziyyətinə mənfi təsir göstərə bilir. Mövcud mexanizmlər isə bu halların hamısına operativ və effektiv cavab vermək üçün yetərli olmur.

Xüsusi olaraq qeyd etmək istəyirəm ki, təqdim olunan dəyişikliklər siyasi məqsəd daşımır. Bu layihə nə siyasi fikirlərin ifadəsinə, nə tənqidə, nə də ictimai müzakirələrə qarşı yönəlib. Layihə yalnız kütləvi şəkildə qeyri-etik, təhqiredici və milli-mənəvi dəyərlərə zidd məzmunun yayılmasına qarşı hüquqi mexanizm yaradır.

Eyni zamanda, layihənin "Arayış" hissəsində də göstərildiyi kimi, sosial platformaların işləmə mexanizmi qeyri-etik və sensasiya xarakterli paylaşımları daha sürətlə geniş auditoriyaya çatdırır. Bu isə xüsusilə yeniyetmələrə və gənclərə mənfi təsir göstərir və cəmiyyətdə davranış modellərini dəyişir.

Bu dəyişikliklər cəzalandırıcı yox, preventiv xarakter daşıyır. Məqsəd qorxutmaq deyil, məsuliyyət formalaşdırmaq, informasiya mühitində sağlam balans yaratmaqdır. İfadə azadlığı qalmalıdır, amma bu azadlıq başqasının ləyaqətinə və hüquqlarına zərər hesabına olmamalıdır.

Hesab edirəm ki, layihə dövrün çağırışlarına uyğundur, hüquqi boşluğu aradan qaldırır və cəmiyyətin mənəvi təhlükəsizliyinin qorunmasına xidmət edir".

# Ermənistanda "Moldova ssenarisi" hazırlanır

**Müxalifətdəki "Ana Ermənistan" partiyasının lideri Andranik Tevanyan hesab edir ki, Avropa İttifaqının (Aİ) 2026-cı il parlament seçkilərini dəstəkləmək qərarı respublikanın daxili işlərinə müdaxilədir.**



Musavat.com xəbər verir ki, bu barədə "Svobodnaya Pressa" (SP) yazıb. Yada salaq ki, Aİ-nin ali nümayəndəsi Kaja Kallas bu günlərdə bəyan edib ki, Ermənistan Moldovada baş verənlərə bənzər xarici təsirlə mübarizədə Avropa İttifaqından kömək istəyib. Onun sözlərinə görə, Ermənistanda yaxınlaşan seçkilərdə əsas risklər Rusiya ilə bağlıdır: "Hazırda Paşinyan və onun hökuməti Aİ-dən daha çox ABŞ-la müttəfiqdir. Bununla belə, Ermənistanın baş naziri Avropanın pulundan və siyasi dəstəyindən imtina etməyəcək", - politoloq Alexander Averin nəşrə açıqlamasında belə deyib.

Onun sözlərinə görə, "Moldova ssenarisi"ni gözləmir: "Ona görə ki, Aİ-də moldovalılardan qat-qat az Ermənistan vətəndaşı yaşayır. Bununla belə, avropalı siyasətçilərin yenidən ikili standartlar tətbiq etməyə hazır olduğuna şübhə etmirəm. Rusiyanın isə erməni cəmiyyəti ilə - mədəni, siyasi və ictimai təşkilatlarla əməkdaşlıq etməlidir. Elita ilə qarşılıqlı əlaqəyə arxalanmaq öz səmərəsini vermir. Paşinyan hələ də hakimiyyətdədir, qismən ona görə ki, ermənilər əvvəlki siyasi klanın hökmranlığından həqiqətən yorulublar".

Politoloq Kirill Ozimko da hesab edir ki, "Avropa İttifaqı bütün demokratik cizgilərini çoxdan aşıb və Moldovada olduğu kimi Avropada hakimiyyətlərin taleyini həll edir. Brüssel Ermənistanın Qərblə yaxınlaşma yolundan sapmaması üçün əlindən gələni edəcək, ona görə də istənilən mümkün saxtakarlığı və nəticələri tanıyacaq. Onlar demokratiyadan bir konsepsiya olaraq imtina etməyə yaxındırlar. Onlar "Avropa dəyərlərinin" diktaturasını qəbul etməyə başlayırlar".

Ekspert deyib ki, Aİ Paşinyanın yenidən seçilməsinə çalışacaq: "Paşinyan Qərbin Ermənistanın müstəmləkəsi olmasının və Rusiyanın maraqlarının Qafqazdan kənarlaşdırılmasının qarantıdır. Bu, avropalıların birdən-birə Paşinyan üçün pis gedəcəkləri təqdirdə İrəvanı seçkiləri saxtalaşdırmağa fəal şəkildə itələməsinə gətirib çıxaracaq. Və sonra nəticələr Brüssel üçün əlverişli olarsa, onları "demokratik" kimi tanıyacaqlar.

"Paşinyanın batmazlığının sirri nədir" sualına politoloq belə cavab verib: "Bu, təbliğatdır. Ermənistanda informasiya və mədəni məkanda, xüsusən də gənclərin məlumat aldığı internet və sosial mediada qlobalistlər və "soroscular" çox güclüdür. Orada informasiya məkanı Rusiyadakı qədər qorunmur. Yerli qlobalistlərin və sorosçuların arqumentləri ondan ibarətdir ki, Ermənistana yalnız "Avropa" inkişaf yolu uğur gətirəcək. "Seçkilərə müdaxilədə ittiham olunmamaq üçün edə biləcəyimiz heç nə yoxdur. Çünki bu seçkiləri mətbuatda müzakirə etməsək belə, onsuz da bizi ittiham edəcəklər. Bizi hər zaman günahsız olaraq günahkar görmələrinə öyrəşməliyik. Deməli, onların reaksiyasına belə fikir verməməliyik. Paşinyana və bizim maraqlarımıza gəlincə, bizim əsas marağımız ondan ibarətdir ki, erməni xalqı heç kimin müdaxiləsi olmadan öz müqəddəratını təyin etsin. Amma strateji baxımdan, təbii ki, buna nail olmaq üçün Ermənistanda daha güclü təsir şəbəkəsinin - "sorosçular"ı sıradan çıxaran Rusiyayönlü media və QHT-lərin olması məqsədəuyğun olardı. Biz orada təbliğatda Qərbyönümlü qüvvələrin belə üstünlüyündən qaçmalıyıq".

YENİ MÜSAVAT
N 232 (8842) 20 dekabr 2025

# Parlament Amnistiya aktını qəbul etdi

## Prezidentin "Konstitusiya və Suverenlik İli" münasibətilə təşəbbüsü minlərlə ailəni sevindirəcək; deputatlardan Avropa Parlamentinə sərt etirazlar



**Dekabrın 19-da Milli Məclisin növbəti plenar iclası keçirildi. Spiker Sahibə Qafarova Avropa Parlamentinin ölkəmizə qarşı qəbul etdiyi qərəzli qətnaməyə etirazını ifadə etdi. Bildirdi ki, Avropa Parlamentində Azərbaycanı hədəf alan növbəti siyasi aksiya təşkil olunub: "Ölkəmizə qarşı böhtanlar və əsassız ittihamlar üzərində qurulan ədalətsiz daha bir qətnamə qəbul edilib. Təəssüflə qeyd olunmalıdır ki, Avropa Parlamenti bu addımı ilə Azərbaycanda real vəziyyəti əks etdirməyən və beynəlxalq hüquq prinsiplərinə zidd olan qeyri-obyektiv və qərəzli praktikasını davam etdirib. Bu qətnamə Avropa Parlamentinin dövlət suverenliyinə hörmət və daxili işlərə qarışmamaq prinsiplərinə etinasız münasibətini əks etdirir. Sənəddə yer alan "siyasi məhbusların mövcudluğu", "siyasi təqiblər", "akademik azadlıqların və mədəni hüquqların pozulması" kimi ifadələr və digər ittihamları biz qətiyyətlə rədd edirik.**

Azərbaycan Respublikası qanunun aliliyi, dövlət institutlarının müstəqilliyi və öz vətəndaşları qarşısında cavabdehliyi prinsiplərinə dönmədən əməl edir. Demokratik institutların sərbəst fəaliyyət göstərməsi, vətəndaş cəmiyyətinin əsas elementlərinin qurulması və digər amillər dövlətimizin demokratiya yolu ilə irəliyə getmək əzmini və iradəsini nümayiş etdirir. Biz əminik ki, dayanıqlı inkişaf, insan hüquqlarının və azadlıqlarının müdafiəsi yalnız milli hüquq qaydası çərçivəsində və dövlətin suveren səlahiyyətlərinə ciddi riayət olunması şəraitində təmin edilə bilər".

Spiker qeyd etdi ki, biz ölkəmizlə münasibətlərin inkişafını əsassız tələblərin yerinə yetirilməsi ilə bağlamaq cəhdlərinə səssiz qala bilmərik: "Bizim dövlətimiz beynəlxalq qurumlar ilə qarşılıqlı hörmət, obyektivlik və ikili standartlara yol verilməməsi əsasında əməkdaşlıq üçün açıqdır. Lakin heç bir qurumun Azərbaycanla təzyiq dili ilə danışmağa haqqı yoxdur. Saxta ittihamlar və əsassız iddialar yolu ilə Azərbaycanın nüfuzuna xələl gətirmək cəhdləri uğursuzluğa məhkumdur. Azərbaycan beynəlxalq hüququn norma və prinsipləri əsasında hərəkət edərək milli maraqlarına zidd olan bütün qərəzli addımları bundan sonra da qətiyyətlə və adekvat şəkildə cavablandıracaq".

Birinci vitse-spiker Əli Əhmədov bildirdi ki, Aİ uzun illərdir Azərbaycana qarşı qərəzli mövqeyi ilə Azərbaycanı tənqid etmək hüququnu itirib: "30 il ərzində Azərbaycanın işğal altındakı torpaqları ilə bağlı ədalətli mövqeyini dəstəkləmək əvəzinə, susqunluq nümayiş etdirən, məcburi köçkünlərimizin yaşadığı humanitar böhrana göz yuman bu qurumun Azərbaycana qarşı iddialar səsləndirməyə mənəvi haqqı yoxdur. Təəssüflə qeyd etmək lazımdır ki, indinin özündə də Avropa Parlamenti Cənubi Qafqazda sülhün bərqərar olmasına mane olmaq, Azərbaycanla Ermənistan arasında normallaşma prosesini pozmaq və əməkdaşlığa əngəl törətmək istəyir. Bu yanaşma Avropa Parlamentinin anti-Azərbaycan meyillərinin formalarından biridir".

Ə.Əhmədov Avropa Parlamentini suveren dövlətlərin daxili işlərinə müdaxilə etmək istədiklərini də söylədi: "Heç bir dövlət, o cümlədən Azərbaycan, öz suveren hüquqlarını kiməsə, xüsusilə də Avropa Parlamentinə güzəştə getməməlidir. Təəssüf ki, Avropa Parlamenti bəzi beynəlxalq qruplarla birgə, müxtəlif ölkələrin daxili işlərinə qarışmaqla yanaşı, həmin ölkələrdə məqsədyönlü şəkildə təxribatlar, zorakı çevrilişlər və qeyri-sabitlik yaratmağa yönəlmiş cəhdlər göstərir. Təbii ki, heç bir dövlət buna imkan verməz və Azərbaycan da istisna deyil".

Deputat Elşən Musayev dedi ki, Avropa Parlamenti Azərbaycana qarşı növbəti, qərəzli Qətnaməni qəbul edib və məlum qətnamənin həqiqətlə, reallıqla aşağı - yuxarı heç bir əlaqəsi yoxdur: "Eyni zamanda, bir məqamı vurğulamaq yerinə düşər ki, bu, ilk presedent deyil və biz zaman-zaman belə ədalətsiz davranışlarla üzbəüz qalmışıq. Amma paralel fonda da heç bir zaman düzgün bildiyimiz yoldan sapmamışıq, oxşar və mənasız tələblərə əhəmiyyət verməmişik, bundan sonra da verməyəcəyik. Qətnamədə insan hüquqlarından, lap dəqiq desəm, bəlli və konkret insanların guya pozulmuş hüquqlarından bəhs edilir. Üstəlik, prioritet kontekstdə elə birilərinin adı keçir ki, onların bəziləri məhz insanlıq əleyhinə cinayətlər törədiblər və bəşəriyyət üçün təhlükəli olan ekstremizmi, separatizmi təbliğ ediblər.

Kimdir Bəhruz Səmədov? İqbal Əbilov? Ya da Əli Kərimli? Xaricdəki xüsusi xidmət orqanlarının əlində oyuncaq olanlar. Mənsub olduqları dövləti onurğa sütunundan sarsıtmağa çalışanlar. Milli dəyərləri təhqir edənlər və cinayəti, cinayətkarlığı öz həyat kredosuna çevirənlər".

Müzakirələrdən sonra Milli Məclisin Avropa Parlamentinin Azərbaycan əleyhinə qətnaməsi ilə bağlı yaradılan komissiyası etiraz bəyanatının mətnini hazırlayaraq təqdim etdi. Sənədin mətnini komissiyanın sədri Şahin İsmayılov parlamentin tribunasından oxudu.

Bəyanatda bildirilir: "Azərbaycan Respublikasının Milli Məclisi, Avropa Parlamentinin 2025-ci il 18 dekabr tarixli qətnaməsini qətiyyətlə rədd edir və onu siyasi məqsədlərə xidmət edən, qərəzli bir sənəd kimi qiymətləndirir. Yalan məlumatlar və saxta iddialar əsasında hazırlanmış bu sənəd, konkret cinayət əməllərinə siyasi don geyindirməyə cəhd edir, hüququn aliliyini pozur və Azərbaycanın daxili işlərinə kobud müdaxilədir. Aydındır ki, Azərbaycan reallıqlarını bilməyən və ya bilərəkdən görməzdən gələn Avropa Parlamenti, bir daha siyasi riyakarlıq nümayiş etdirərək, insan hüquqları məsələlərini öz gizli gündəliyi və təxribatçı niyyətləri üçün vasitəyə çevirir".

Bəyanat mətni yekunda qəbul edildi.

Daha sonra Milli Məclis "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında" layihəsini müzakirəyə çıxardı. Layihəni Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təqdim etdi.

Komitə sədrləri Zahid Oruc, Siyavuş Novruzov, deputatlar Razi Nurullayev, Azay Quliyev və digərləri çıxış edərək layihəni müdafiə etdilər. Müzakirələrdən sonra parlament yekdilliklə qərar layihəsini təsdiqlədi. Deputatlar Prezidentin təşəbbüsü ilə hazırlanmış, 20 min nəfəri əhatə edəcək amnistiya layihəsini yekdilliklə dəstəklədilər.

Milli Məclisin sədri Sahibə Qafarova Amnistiya qərarının layihəsi barədə çıxış etdi. Bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin qanunvericilik təşəbbüsü qaydasında geniş miqyaslı amnistiya qərarının layihəsini təqdim etməsi dövlətimizin Konstitusiya ilə elan olunmuş insan hüquqlarına hörmət, humanizm və qanunun aliliyi prinsiplərinə sadiqliyini bir daha nümayiş etdirir: ""Konstitusiya və Suverenlik İli" kimi əlamətdar dövrdə müzakirəyə çıxarılan bu akt dövlətimizin öz institutlarının möhkəmliyinə və hüquq sisteminin yetkinliyinə inamını əks etdirir. Əminliklə söyləmək olar ki, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğu yeni tarixi reallıq şəraitində belə bir qərarın qəbul edilməsi ictimai sabitliyin möhkəmlənməsinə, hüquq siyasətinin humanistləşdirilməsinə və Azərbaycan dövlətinin Konstitusiya prinsipləri əsasında inkişafına dəyərli töhfə verəcək".

Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Tütün və tütün məmulatı haqqında", "Reklam haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişiklik edilməsi barədə qanun layihəsi Milli Məclisin plenar iclasında 1-ci oxunuşda müzakirə olunaraq qəbul edildi. Komitə sədri Tahir Rzayev çıxış etdikdən sonra Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov layihəni təqdim etdi. Bildirdi ki, qanun layihəsinin əsas məqsədi və mahiyyəti barədə komitə sədri, hörmətli həmkarımız Tahir Rzayev ətraflı məlumat verdi: "Biz də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi olaraq elektron siqaretlərin və onların komponentlərinin idxalını, ixracını, istehsalını, saxlanılmasını, topdan və pərakəndə satışını və istifadəsini qadağan edən qanun layihəsini və bununla bağlı hörmətli həmkarımız Fazil Mustafanın qanunvericilik təşəbbüsünü birmənalı şəkildə dəstəkləyirik və bununla bağlı qərarımızı təqdim etmişik. Layihənin məzmunundan göründüyü kimi, elektron siqaretlərə münasibətdə sərt qadağa rejiminin tətbiqi hər şeydən əvvəl vətəndaşlarımızın, xüsusilə də gənclərin və yeniyetmələrin sağlamlığının qorunmasına hədəflənib".

Müzakirələrdən sonra layihə ilk oxunuşda qəbul edildi.

❑ Elşad PAŞASOY,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 232 (8842) 20 dekabr 2025

# Erməni məhbusun arvadından qəribə xahiş

## Bakıda mühakimə olunan Livandan gəlmiş cani əfv oluna bilərmi?

**Bakıda saxlanılan erməni məhbus Vigen Eulcekçyanın arvadı Linda Eulcekçyan Azərbaycanın Birinci vitse-prezidenti, ölkənin birinci xanımı Mehriban Əliyevaya ərinin əfvi üçün müraciət edib. Məktub Eulcekçyan ailəsini təmsil edən vəkil Lusiana Minasyanın sosial media səhifəsində yerləşdirilib.**

Məktubda deyilir: "Mən beş ildən çoxdur ki, Azərbaycanda həbsdə olan Vigen Eulcekçyanın həyat yoldaşıyam. Bu bir siyasi bəyanat deyil, mən sizə bir qadını qadına müraciətilə səslənir, sizin şəfqətinizə ümid bəsləyirəm. Vigenin yoxluğu ailədə ağrılı bir boşluq yaradıb. Anası həbsdə olarkən vəfat edib və onun dəfn mərasimində iştirak etməsi mümkün olmayıb".

Məktubda həmçinin qeyd olunub ki, Lindanın anasına ölümcül xərçəng diaqnozu qoyulub və Vigen ailəsindən uzaqdadır və bu müddət ərzində onlarla birlikdə ola bilməz. Müraciət müəllifləri hesab edirlər ki, Vigenin azadlığa buraxılması Azərbaycan tərəfindən mühüm bir siqnal olardı: "Sisin şəfqətiniz evimə sülh gətirməklə yanaşı, dünyaya belə bir mesaj olardı: Azərbaycan təkcə güclü deyil, həm də mərhəmətlidir".

Xatırladaq ki, 5 il öncə Şuşa yaxınlığında saxlanılan Livan ermənisi Vigen Eulcekçyan terrorçuluq ittihamı ilə 20 il müddətində azadlıqdan məhrum edilib.

Bakıdan bu kimi xahişə hər hansı reaksiya olmalıdırmı? Eulcekçyanın əfvi və ya cəzasının yumşaldılması mümkünmü? Gözlənilən amnistiya aktı ona da hər hansı şəkildə şamil ola bilərmi?

Hüquqşünas Çingiz Qənizadənin sözlərinə görə, amnistiya aktı layihəsi ilə tanışlıqdan belə məlum olur ki, xüsusilə ağır cinayətlər törədən şəxslərə şamil olunmayacaq: "Bu baxımdan nəinki Vigen, terrorçuluqda, müharibənin hazırlanmasında, başlamasında iştirak edən, separatçılıqla məşğul olan, eləcə də hazırda istintaqları gedən şəxslər amnistiya aktına düşməyəcəklər. Bu qadına sual vermək lazımdır ki, sənin Livandan olan erməni ərin Azərbaycanın gözəl guşələrindən biri olan Şuşada nə gəzirdi? Nə üçün terrorçuluq fəaliyyəti ilə məşğul olurdu? Belə bir müraciəti zamanında ərinə etməli idin ki, özgəsinin torpağında savaşmaq faciə ilə nəticələnəcək. İndi erməni hiyləgərliyinə əl atır".

Ç.Qənizadənin fikrincə, çətinə düşəndə ermənilər bu cür hiylələrə əl atır: "Hətta daha ağır misallar çəkə bilərdim ki, ermənilər məqsədlərinə çatmaq üçün kimlərini qurban verməyə, kimlərini kiminsə qapısına göndərməyə hazır olan xalq kimi daim tarixdə qeyd olunublar. Həmin erməninin 5 ilə yaxın cəza çəkməsinə, 20 il həbs cəzası verilməsinə gəlincə, unutmayaq ki, Prezidentin konstitusion hüququ var. Kimisə əfv etmək ölkə başçısının səlahiyyətindədir. Mehriban xanım Birinci vitse-prezidentimizdir və hamımızın böyük sevgi və ehtiramımız var. Amma qanunda yazılır ki, prezident əfv edə bilər. Bu, prezidentə verilən bir hüquqdur. İndi bir qadın kimi Birinci vitse-prezidentimizə müraciət edir. Mehriban xanım olduqca humanist bir insandır, liderdir. Onun üçün də həmin həssas nöqtəyə toxunmağa çalışırlar. Onların humanizm prinsiplərindən istifadə edərək, özlərinin arzularına çatmaq istəyirlər. Amma Birinci vitse-prezident prezidentlə danışa bilər. Ondan sonra məsələyə münasibət bildirilməsi mümkündür".



Hüquq müdafiəçisi yada salıb ki, bundan əvvəl də Livan ermənisi azad edilmişdi, amma ölkəsinə qayıdanda Azərbaycana böhtanlar yağdırdı: "İndi bu erməninin də əməllərinin nəticəsi nə olub, terrorçuluq niyyəti ilə törətdiyi cinayətlərin qurbanları varmı, həmin qurbanların sayı çoxdurmu, yaxud azdırmı - bunlar təhlil olunub prezidentə təqdim ediləndən sonra baxıla bilər. Amma görünən odur ki, prezident xalqa qarşı bu cür cinayətlər törədən şəxslərə, eləcə də xarici dairələrin tapşırıqları ilə içərimizdə terrorçuluq fəaliyyəti həyata keçirən şəxslərə humanizm göstərməyəcək. Bu baxımdan yaxın vaxtlarda sözügedən şəxslə bağlı müsbət qərar gözlənilmir. Amma bu, mənim fikrimdir, son söz prezidentindir".

Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı da bu hərbi cinayətkarların azadlığa buraxılmasının əleyhinədir: "Həmin şəxs məhkəmə qərarı ilə terrorçu kimi tanınıb. Ortada məhkəmənin qərarı var. Əgər o, terrorçudursa, bu iş çətindir. O, kiçik bir cinayət törədib həbs olunsaydı, bir yolunu tapmaq olardı. Amma o şəxs terrorçu kimi Qarabağa gəlib, onun üçün də düşünürəm ki, amnistiya və əfvə düşə bilməz. Ona görə ki, terrorçu heç vaxt bağışlana bilməz. Terrorçunun milliyyəti olmur. Belə şəxslərin etdikləri hərəkətlər insan qırğınlarına səbəb olur. Hesab edirəm ki, bu adama güzəşt edilməməlidir. O, erməni olduğu üçün deyil, sadəcə terrorçu olduğuna görə azadlığa buraxıla bilməz".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Putin Türkiyəyə getməyə bilər - Sensasion əngəl

## Ankara-Moskva gərginliyi Cənubi Qafqaza da təsir edəcək

**Türkiyə Rusiyadan aldığı S-400 hava hücumundan müdafiə sistemlərini geri qaytarmağa çalışır. Belə bir addım Ankaraya uzun müddətdir istədiyi F-35 döyüş təyyarələrini almağa imkan verə bilər. Bu iddia ilə "Blumberq" çıxış edib.**

Bildirilir ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ötən həftə rusiyalı həmkarı Vladimir Putinlə Aşqabadda keçirilən görüşdə S-400 məsələsini də qaldırıb. Lakin Putinin sözçüsü bu iddianı təkzib edib: "Aşqabadda belə müzakirə olmayıb".

Yada salaq ki, Moskva və Ankara 2017-ci ildə S-400 sistemlərinin tədarükü ilə bağlı 2,5 milyard dollarlıq müqavilə imzalayıb. ABŞ Türkiyəni F-35 proqramından kənarlaşdıraraq və bir neçə türk müdafiə şirkətinə qarşı CAATSA kimi tanınan sanksiya rejimini tətbiq edərək, razılaşmanın qarşısını almağa çalışıb. Əsasnamədə qeyd olunub ki, Rusiyanın hava hücumundan müdafiə sistemlərinin Ankaraya tədarükü "Amerika hərbi texnologiyası və personalının təhlükəsizliyini təhlükə altına qoyur və Rusiya müdafiə sektoruna əhəmiyyətli resurs verir". Buna baxmayaraq, raket sistemləri 2019-cu ilin yayında Türkiyəyə təhvil verilib.



Maraqlıdır ki, bu arada Putinin Türkiyəyə səfərə hazırlaşdığı haqda xəbərlər yayılıb. Səfərin S-400-lərlə əlaqəsi ola bilərmi? S-400-lərin qaytarılacağına yəqinlik hasil edən V.Putin etiraz olaraq qardaş ölkəyə getməyə bilərmi?

AMİP sədrinin beynəlxalq əlaqələr üzrə müavini Elşən Mustafayev "Yeni Müsavat"a bildirdi ki, Türkiyənin Rusiyadan aldığı S-400 kompleksləri geri qaytarmaq istəməsi ilə bağlı məlumatlara hər iki tərəfdən hər hansı reaksiya yoxdur: "Amma son vaxtlar gedən proseslərdən irəli gələrək yaranmış bəzi təsdiq olunmayan məlumatlar üzərində ehtimallar edə bilərik. Bu ehtimalları da əsasən Rusiya tərəfinin istəkləri üzərinə istiqamətləndirməyə məcburam. Belə ki, hələ aylar öncə Ukraynanın Qərbdən orta və uzunmənzilli raketlər alacağından narahat olaraq Rusiya hava hücumundan müdafiə sistemlərini gücləndirməklə bağlı işlər görməyə başlamışdı. 4 ilə yaxın gedən müharibədə Rusiyanın ciddi sayda hava hücumundan müdafiə sistemləri sıradan çıxıb. Həmçinin Ukraynanın Rusiya ərazisində hücumlarını daha geniş ərazilər üzrə tətbiq etdiyindən hazırda Rusiyanın ixtiyarında olan hava hücumundan müdafiə sistemlərinin sayı da belə görünür ki, bütün əraziləri əhatə edəcək qədər deyil. O səbəbdən hesab edirəm ki, əgər belə bir təklif ortada varsa onun məhz Rusiya tərəfdən ola biləcəyi ehtimalları daha böyükdür".

Hərbi ekspert Səxavət Məmməd hesab edir ki, Türkiyənin alternativlərə yönəlməkdən başqa çıxış yolu yoxdur: "ABŞ-nin Türkiyədəki səfirinin S-400 hava hücumundan müdafiə sisteminin Rusiyaya təhvil verilməsi ilə bağlı açıqlamasından sonra Türkiyə ilə Rusiya arasında müəyyən gərginlik hiss olunur. Düzdür, Türkiyə rəsmi olaraq bəyan etdi ki, S-400-ü Rusiyaya təhvil verməklə bağlı planları yoxdur. Ancaq Qərb mediası indi də yeni bir iddia ortaya atıb. Bildirilir ki, Ərdoğanla Putinin son görüşündə Ərdoğan S-400-ü Rusiyaya təhvil vermək istədiklərini, eləcə də pulun müqabilində enerji resursları istəyib. Putinin Türkiyəyə səfəri gözlənilirdi. İddia olunur ki, artıq Putin Türkiyəyə səfər etməkdən imtina edir. Buna səbəb kimi də Ərdoğanın S-400-ü geri qaytarmaq istəyi olub. Hesab edirəm ki, əgər Türkiyə S-400-ü Rusiyaya geri qaytararsa, yaxud Hindistana satarsa, Ankara ilə Moskva arasında gərginlik baş verəcək. Bu gərginliyin Qara dənizdə baş verən proseslərdə şahidi də oluruq. Rusiya tankeri Türkiyənin sahil sularında Ukrayna tərəfindən vuruldu. Rusiya isə buna cavab olaraq Türkiyə tankerini Ukraynanın sahil sularında, daha konkret Odessadakı limanda vurdu. Rusiya bunu etməklə Türkiyəyə mesaj verir ki, onunla da gərginliyə hazırdır. Bu gərginlik hansı ölkəyə nə qazandırır, hansı ölkədən nə aparar, onu iqtisadçılar daha dəqiq təhlil edə bilər. Hesab edirəm ki, əgər iki ölkə arasında gərginlik olarsa, biz bunu Cənubi Qafqazda da hiss edə biləcəyik".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 232 (8842) 20 dekabr 2025

# İrəvanda Zəngəzurla bağlı hərəkətlənmə



Səməd Seyidov

## Deputat: “Avropa Parlamentinin məqsədi başqadır”

**“Biz dəfələrlə görmüşük ki, Azərbaycanın uğurları dünya səviyyəsində tanındıqca Avropa Parlamenti bəzi dairələrin qərəzli mövqeyini ortaya qoyur. Əslində, onların məqsədi regionda sülh və əməkdaşlıq mühitini dəstəkləmək olmalıdır”.**

Bunu Milli Məclisin plenar iclasında Azərbaycan - Avropa İttifaqı Parlament Əməkdaşlıq Komitəsinin nümayəndə heyətinin sədri Səməd Seyidov Milli Məclisin Avropa Parlamentinə qarşı qəbul etdiyi bəyanata münasibətdə qeyd edib.

“Onlar Cənubi Qafqazda illərlə gözlənilən sülh prosesinə töhfə verməlidirlər. Bizimlə dialoqa dəvət etməli, obyektiv yanaşmalı və konstruktiv əməkdaşlıq qurmalıdırlar. Lakin təəssüf ki, Avropa Parlamenti tamam başqa bir mövqedən çıxış edir. Bu qurum əslində, Avropanın bu gün düşdüyü dərin böhranın bir güzgüsüdür. Qeyri-sabitlik, ikili standartlar, korrupsiya və siyasi riyakarlıq - bunların hamısı artıq Avropa Parlamentinin içərisində özünü göstərir”, - deyə deputat bildirib.

Səməd Seyidov qeyd edib ki, Vaşinqtonda 8 avqustda keçirilmiş görüş və əldə olunmuş razılaşma da regionda sülh üçün mühüm dönüş nöqtəsi oldu. Amma Avropa Parlamenti bu barədə susur, heç bir obyektiv münasibət bildirmir.

Azərbaycan - Avropa İttifaqı Parlament Əməkdaşlıq Komitəsinin nümayəndə heyətinin sədri dünən ona Avropa Parlamentindən zəng gəlditini də vurğulayıb:

“Avropa Parlamentindən mənə bir zəng gəldi. Deputatlardan biri mənə bildirdi ki, onlar bu məsələni tamam başqa məqsədlərlə gündəmə gətiriblər. Mən isə həmin görüşdə yalnız sülh və əməkdaşlıqdan danışmaq istədiyimi bildirdim. Həmin görüş zamanı aydın oldu ki, onlar artıq əvvəlcədən hazırlanmış və qəbul olunacağı bəlli olan qətnaməni təqdim etmək niyyətindədirlər.

Hətta Avropa İttifaqının nümayəndəsi belə etiraf etdi ki, “Azərbaycan bizə lazımdır”, “Azərbaycan çox yüksək səviyyədə inkişaf edir” və Azərbaycan-Ermənistan arasında sülh yaxınlaşır. Mən bu fikirləri də birbaşa öz çıxışımda gündəmə gətirdim".

“Ona görə hesab edirəm ki, bizim cavabımız çox düzgün, prinsipial və yerində oldu. Bu gün biz o mərhələdəyik ki, öz sözümüzü açıq şəkildə, ən yüksək səviyyədə ifadə edə bilir və həyata keçiririk. Bu, dövlətimizin müstəqil siyasət yürütmək iradəsinin və güclənən mövqeyinin bariz nümunəsidir. Cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən siyasət, eləcə də bu gün Sizin qarşısınızda səsləndirilən mövqelər Azərbaycanın hansı səviyyədə öz sözünü deməyə qadir olduğunu göstərir”- Səməd Seyidov qeyd edib.

**Ermənistanın Baş naziri Nikol Paşinyan Rusiyadan Ermənistanda Azərbaycan və Türkiyəyə gedən dəmir yolu hissələrinin bərpa etməsini xahiş edib. Həm də mümkün qədər tez. Bu barədə Ermənistan mediası yazıb.**

“Mən Rusiyadakı həmkarlarımdan Arazdəyəndən Naxçıvana və Axurik kəndindən Türkiyə sərhədinə qədər dəmir yolu hissəsinin təcili olaraq tam bərpasını həyata keçirmələrini xahiş etdim”, - o bildirib.

Qeyd edək ki, söhbət həm də Qərbi Zəngəzurdan keçən dəmiryolundan gedir. Ermənistandakı dəmir yolları isə bəlli olduğu kimi, Rusiya şirkətinin nəzarətindədir.



Bəs Moskvanın Paşinyanın xahişinə cavabı nə olacaq? Rusiya nə dərəcədə dəmiryolunun bərpasında maraqlı ola və inşa nə qədər çəkə bilər? Nəhayət, İrəvanın Zəngəzur dəhlizi ilə bağlı hərəkətə keçdiyini söyləmək olarmı?

Sabiq maliyyə naziri, “Ekonomiks” Beynəlxalq İqtisadi Araşdırmalar İctimai Birliyinin sədri Fikrət Yusifov “Yeni Müsavat”a bildirdi ki, vaxtilə Ermənistana rəhbərlik etmiş cinayətkar, korrupsioner sərkisyanlar, köçəryanlar öz hakimiyyətlərini möhkəmləndirmək naminə Ermənistanın Rusiyadan iqtisadi asılılığını pik həddə çatdırdılar, indi Ermənistan bu yanlış siyasətin əziyyətini çəkir: “Təbi ki, istənilən dövlət üçün iqtisadi asılılıq acınacaqlı haldır. İqtisadi asılılıq o deməkdir ki, ölkə dövlət kimi müstəqil deyildir və o, asılı olduğu dövlətin tam təsirindədir. Gələcəkdə bu asılılığın bədəlini necə ödəniləcəyinin fərqində olmayan Sərkisyan-Kəçəryan kimi Qarabağ caniləri, indi zamanında Ermənistanı sonadək Rusiyanın caynağına keçirdiklərindən zövq alırlar. Baxın, Ermənistan indi Rusiyadan xahiş edir ki, gəl sahibi olduğun dəmir yollarında bərpa-təmir işləri apar. Kim inanar ki, Rusiya - Ermənistan münasibətlərinin indiki durumunda Rusiya şirkəti gəlib bu işləri yerinə yetirəcəkdir? Rusiyaya aid şirkətin həmin işləri görüb-görməməsinə Vladimir Putin özü şəxsən qərar verəcək. Onun hansı qərarı verəcəyi isə indidən bəllidir. Qərar Paşinyanın arzu etdiyi qərar olmayacaq”.

F.Yusifovun sözlərinə görə, ona görə də belə vəziyyətdə Ermənistan bu məsələdə Rusiya ilə siçan-pişik oyunu oynamamalı, Rusiya şirkətlərinə dövlət əhəmiyyətli bu işləri görmək üçün zaman müəyyən etməlidir: “Əgər şirkət bu işləri görməkdən boyun qaçırarsa, ona ciddi sanksiyalar tətbiq olunmalıdır. Bu sanksiyalar işləmədikdə isə Rusiya şirkətinin mülkiyyətinə verilmiş dəmir yollarının milliləşdirilməsi məsələsi gündəmə gətirilməlidir”.

Ekspertin sözlərinə görə, Rusiyadan iqtisadi cəhətdən asılı Ermənistanın bu asılılıqdan qurtulmaq yolu çətin və uzun olacaqd: “Bu yolda uğur qazanmaq üçün Paşinyan hökumətinə qətiyyətli davranmaq lazım gələcək. Ermənistan hakimiyyəti Zəngəzur yolunun açılması üçün lazım olan addımları atmaq istəyir. Lakin qarşısında maneələrin olduğu Paşinyanın Rusiyaya dəmiryolu ilə ağlı müraciətindən də görünür”.

❑ Etibar SEYİDAĞA,
“Yeni Müsavat”

## "Qərbin Vardanyan kimi canilərə sevgisi bitmir"



Ceyhun Məmmədov

**“Biz növbəti dəfə erməni lobbisinin təmsilçisinə çevrilən Avropa İttifaqının ölkəmizə qarşı qərəzli yanaşmasının şahidiyik. Çox təəssüf ki, Avropa Parlamentinin Azərbaycanla bağlı qərəzə və ikili standartlara yol verməsi ənənə halını alıb. Burada bir məqsəd var, o da Cənubi Qafqazda Azərbaycanla Ermənistan arasında sülh və təhlükəsizlik prosesinə mane olmaqdır”.**

Bunu Milli Məclisin iclasında deputat Ceyhun Məmmədov deyib.

O qeyd edib ki, görünür, Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyada artan nüfuzu onları ciddi narahat edir: “Münaqişənin tənzimlənməsinə heç bir real töhfə verməyən Avropa İttifaqı bölgəmizə sülhün gəlməsinə mane olmaq yolu seçib.

Biz bu qərəz və ədalətsizliyi bir müddət bundan əvvəl Avropa İttifaqı ilə Ermənistan arasında imzalanmış “Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik” adlı sənəddə də gördük. Bu sənəd postmünaqişə dövründə reallıqları təhrif etməklə yanaşı, bütövlükdə Azərbaycanla Ermənistan arasında sülh gündəliyini hədəfə alıb".

Deputat bildirib ki, Ermənistanda bu qədər həbslər həyata keçirilir: “Əvvəlki hakimiyyətdə təhsil olunan bir çox siyasi xadimlərə qarşı bir çox həbslər və təqiblər həyata keçirilib. Niyə bunu pisləyib bir bəyanatı görmürük. Bu gün Ermənistanda din xadimlərinə qarşı ciddi repressiya var. Nə qədər din xadimi həbs olunub. Niyə buna heç bir reaksiya yoxdur? Onlar siyasi baxışlarına görə təqib olunurlar.

Lakin nə üçünsə Qərb strukturları bu haqda indiyədək dinləmələr keçirməyib, heç bir sənəd qəbul etməyib. Əvəzində Aİ və Avropa Parlamenti Azərbaycanda insan haqları ilə bağlı dinləmələr təşkil edir. Ermənistan 1 milyonun Azərbaycanlının evi, tarixi abidələrimiz Ermənistan tərəfindən dağıldıqda harada idi? Niyə bir dəfə də olsun dağıdılan 67 məscidlə bağlı bir bəyanat qəbul etmədi. Ötən əsrin 80-ci illərində öz doğma yurdlarından deportasiya olunan Azərbaycanlıların hüquqlarını müdafiə etmirlər? Niyə bununla bağlı qərar qəbul etmirlər. Bu gün Avropa ölkələrində islamofob meyllər sürətlə artır. Buna niyə reaksiya yoxdur? Niyə bunun qarşısı alınmır?

Aİ-nin müharibə cinayətkarlarına sevgisi də bitmir. Təşkilat dəfələrlə Azərbaycana müharibə cinayətkarlarını azad etməyə çağırışlar edib. Halbuki onlardan biri Ruben Vardanyan Ukraynaya qarşı müharibəni maliyyələşdirən oliqarxlardan biri idi".

## “Ermənistan bizə konyak, kompot və mürəbbə sata bilər”

**Azərbaycan və Ermənistan arasında son dövrlər iqtisadi müstəvidə istiləşmə müşahidə olunur. Rusiya və Qazaxıstan taxılının Azərbaycan və Gürcüstan vasitəsilə Ermənistana daşınmasının ardınca, ötən gün Azərbaycan neft məhsullarının ilk partiyası Ermənistana göndərildi.**

Bəs gələcəkdə rəsmi İrəvan Bakıya hansı məhsulları təklif edə bilər?

Modern.az-a danışan iqtisadçı Zahid Məmmədovun fikrincə, Ermənistan Azərbaycanla əməkdaşlıq hesabına regiondan böyük qazanc götürə bilər.

O qeyd edib ki, Ermənistanın kənd təsərrüfatı və qida sənayesi məhsulları - konservlər, kompotlar, mürəbbələr və şərabçılıq məhsullarını Azərbaycana ixrac edə bilər:

“Bir zamanlar Rusiya bazarında Ermənistanın malları geniş yayılmışdı. Sovet dövründən içki brendi də formalaşdırıb. Düzgün strategiya qursa, Ermənistan yeyinti sənayesindən böyük qazanc əldə edə bilər.

Göyçə gölü və digər turizm məkanları Azərbaycan turistləri üçün maraqlı ola bilərdi. Ermənistan ağıllı siyasət yürüdərək Azərbaycan, Türkiyə və İran bazarlarından milyonlarla turist cəlb edə bilərdi. Təkcə Türkiyənin 80-90 milyonluq əhalisi böyük turizm potensialıdır".

İqtisadçı vurğulayıb ki, Asiyada Çin qonşuları üçün hansı iqtisadi mənfəətdirsə, Azərbaycan da Qafqaz üçün eyni funksiyadadır.



Zahid Məmmədov

“Ermənistan ərazisində azərbaycanlılara məxsus tarixi-mədəni irsin qorunması və nümayiş etdirilməsi həm iqtisadi, həm də beynəlxalq imic baxımından mühüm imkan yarada bilərdi. Məscidlərin, qəbiristanlıqların, tarixi yaşayış məkanlarının bərpası Ermənistan üçün böyük gəlir mənbəyinə çevrilə bilərdi. Təəssüf ki, bunun əvəzinə illərlə aqressiv siyasət seçildi”, - Zahid Məmmədov qeyd edib.

YENİ MÜSAVAT
N 232 (8842) 20 dekabr 2025



# Termodinamik günahlar

Zamin HACI
zaminhaci@gmail.com

**Müşfiqabada gedən qaz xəttinin oğurlandığı haqda qaz idarəsinin məlumatı yalan çıxdı. Polis deyir araşdırdıq, durbalar yerindədir. Ancaq camaat hələ də qazanxanadan istilik ala bilmir. Onda belə çıxır istilik oğurlanmışdır. Bütün hallarda, ölkəmizdə termodinamikanın qanunları işləmir. Yoxsa necə ola bilər, qaz var, durba var, qazanxana var, idarə var, sən isə evdə büzüşürsən?**

Eyni zamanda, büzüşə-büzüşə dünyaya sığmırıq. Bunun özü termodinamikanın "kənardan enerji verilməsə əbədi mühərrik qayırmaq olmaz" ehkamına ziddir. Bəs biz 300 manat pensiya ilə ayda 1300 manatı necə xərcləyirik? Hələlik elm bunu izah edə bilmir.

Sözgəlişi, termodinamikanın 2-ci qanununa görə qapalı sistemlərdə hissəciklərin bir-birinə sürtünməsi nəticəsində entropiya (daxili istilik) artır, temperatur qalxır və dağıdıcı hərarətlə molekullar arasında sabitlik pozulur. Zəhmət olmasa Operativ Qərargah növbəti antikovid addımları zamanı sərhədləri bağlı saxlayanda bunu nəzərə alsın.

Belə nadir elmi xüsusiyyətlərimiz çoxdur. Elə dünən həkimbaşının açıqlamasında birini gördüm. Deyir, bu il camaata 85 milyon tibbi xidmət göstərmişik. Ancaq pasiyent sayı 5 milyon imiş. Bəs bu necə olub? Yəqin hər dəfə iynə vuranda, sarğını dəyişəndə, nə bilim, qarşoku boşaldanda bu, yeni bir tibbi xidmət kimi hesaba alınmışdır.

Min şükür. Dərindən minnətdarıq. Prinsipcə, biz gəzməyə qərib ölkəyə, ölməyə vətənə gəlirik, ziyanı yoxdur. Tibbi xidmət heç olmasa da incimərik. Onsuz hamımıza məlumdur, adamı Allah saxlayır, yüz il yaşamayanların günah özündədir, əri döyən arvadı adətən it də tutur, bir də gərək başını işlədib fikir-mikir kimi işlərə girişməyəsən, çünki xalqımızın inancına görə yüz fikir bir borcu ödəmir. (Xalqın rəyinə görə fikir adama başqa planlar da qurur, onları burda yaza bilmərəm, Milli Məclis mənəvi dəyərlər haqqında qanun hazırlayır, cərimləsi gəlir).

Maraqlıdır ki, həkimbaşının statistik hesabatında bu il haqqında cinayət işi açılan rəhbər vəzifəli şəxslərdən danışılmamışdır. Məsələn, onlardan biri camaata saxta həkim lisenziyası satırmış, dəlləyi cərrah, ayaqqabı ustasını plastika həkimi, nə bilim, köşə yazarını kolonoskopiya üzrə alim kimi qeydiyyata alırmış. Allah bilir (yenə Allah - başqa kimimiz var, əlaqədar orqanlar sarıdan?), həmin zənən xeylaqlarının əməlləri sayəsində nə qədər insan ölüb, şikəst olub və sairə. Səhiyyə Nazirliyinin İnsan resursları, elm və təhsil şöbəsinin müdiri vəzifəsində işləmiş Səidə Rüstəmovanın Bakıda və bölgələrdə 5 milyon manatlıq əmlakının siyahısını açıqlamışdılar. Sanki elm yox, ev şöbəsinin, insan resursları deyil, mansard resursları şöbəsinin müdiri işləyibmiş.

Ancaq nədənsə bu zənənlər ev dustağıdır, hansısa xarici təşkilatdan qanunsuz qrant almaqla suçlanan qadın jurnalistlər isə əsl türmədədir. Əlbəttə, yanlış anlaşılmasın, mən heç bunların da tutulmağını qətiyyən arzulamıram. Yuxarıda yazdığım kimi, əliəyrilik bizim mənəvi dəyərlərimizdən biridir. Lakin niyə qanun qarşısında hamı bərabər deyil?

Keçən il Bakıda bir kafedə dava düşüb, aralaşdırmaq istəyən bədbəxtin başına dəmir əsa ilə vurub öldürüblər. İndi ağır cinayət məhkəməsi sizcə həmin caniyə neçə il cəza kəsib? 5 il! Təsəvvür elə. Adam öldürməyə 5 il. Hətta həmin maddənin (126.3) CM-də cəzası 9 ildən 12 ilədən göstərilməyinə baxmayaraq. Xəbərdə qatilin məlum bölgənin sakini olduğu yazılmışdı. Bunun cəzanın yüngüllüyünə təsiri olmuşdurmu?

Burada problemə başqa aspektdən yanaşmalıyıq. Ölənə də azı 15-20 sutka həbs verilməliydi. Ya da, nə bilim, qəbrinə ziyarət qadağası... Zalım oğlu, axı niyə araya girirsən ki? Qoy bir-birlərini qırsınlar da bə. Bu cür sülhyaratma tədbirləri həm təkamülə, həm də milli dəyərlərimizə ziddir. Axı günah öləndədir! Sən isə araya girib özün ölürsən, imkan vermirsən dalaşanlardan biri ölsün, həqiqi günahkar aşkara çıxsın.

Onu da biləsiniz, "günah - öləndədir" termodinamikanın 4-cü qanunudur. AMEA-da kəşf olunub, paxıllığımızı çəkdikləri üçün Nobel vermirlər.



# Paşinyana Vardanyan təhdidi - Bakı onu qaytarsa...

## Ermənilər baş naziri hərbi cinayətkarı müdafiə etməməkdə günahlandırır - Nikol üçün Ruben təhlükəsi qalır

**Erməni politoloq Vahe Ovanisyan hakimiyyəti Bakıda həbsdə olan Ruben Vardanyanı müdafiə etməməkdə günahlandırıb. Onun sözlərinə görə, Rusiya vətəndaşlığından imtina edərək Azərbaycana gələn Vardanyanın həbsi ilə bağlı Ermənistan hakimiyyəti o qədər də kəskin mövqe tutmayıb.**

Bu da ondan irəli gəlir ki, Nıkol Vardanyanı özünə rəqib görüb. Moskvanın planı da Vardanyanı Qarabağdan Ermənistana transformasiya etmək idi. O halda Paşinyanı onu müdafiə etməməkdə günahlandırmaq nə qədər düzgündür?

Vardanyanın sülh müqaviləsindən sonra Ermənistana təhvil verilməsi xahiş oluna bilərmi? Milyarder cani Nikol üçün nə dərəcədə təhlükəli olacaq?

Politoloq Oqtay Qasımov "Yeni Müsavat"a bildirdi ki, Ruben Vardanyan Qarabağa məhz Moskvadan konkret tapşırıq və təlimatla gəlmişdi: "Məhz Moskva onu Qarabağa ezam etməklə həm bölgədə separatizmi möhkəmləndirmək, orada Rusiya hərbi kontingentinin qeyri-müəyyən müddətə qalmasını təmin etmək, regionda daim gərginlik mühitini saxlamağı qarşısına məqsəd qoymuşdu. Ruben Vardanyanın da yardımı ilə Qarabağda sülhməramlı adı altında missiyanın hərbi baza ilə əvəz olunması nəzərdə tutulurdu. Milyarder Vardanyanı bölgəyə göndərməklə ondan bir qəhrəman obrazı yaratmaq və ardınca Qarabağdan Ermənistanda hakimiyyətin olimpinə qaldırmaq projesi var idi. Şübhəsiz ki, bu şəxsin Qarabağdakı fəaliyyəti Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı olmaqla yanaşı, əslində həm də dolayısı yolla Ermənistan hakimiyyətinə, Nikol Paşinyana qarşı yönəlmişdi. Ruben Vardanyan Qarabağda siyasi kapital toplayıb Ermənistanda siyasi Olimpin zirvəsinə qalxmağı düşünürdü. Bütün bu planlar baş tutmadı. Azərbaycan Ruben Vardanyanın planlarını və Vardanyan üzərindən qurulan planların hamısını pozdu. Azərbaycan öz ərazisi olan Qarabağda anti-terror əməliyyatı həyata keçirməklə Ruben Vardanyan daxil olmaqla Azərbaycana qarşı ağır cinayətlər törətmiş xeyli hərbi canini yaxaladı və qurulan bütün planları alt-üst etdi. Əlbəttə ki, Ermənistan hakimiyyəti Bakıda mühakimə olunan separatçılarla bağlı zaman-zaman bəyanatlar səsləndirsə də və Azərbaycana müraciətlər etsə də həmin şəxslərin istintaqının aparılması, onlar barədə məsələ Azərbaycanın daxili məsələsidir. Gələcəkdə Ermənistanın Ruben Vardanyan və digər canilərin Ermənistana verilməsi ilə bağlı Azərbaycandan xahişi ola bilərmi? Bu istisna deyil. Ancaq bir daha qeyd edirəm ki, həmin cinayətkarlarla bağlı məhkəmənin hökmü olacaq və onlara layiq olduqları cəza veriləcək. Bundan sonrakı dönəmdə əgər Cənubi Qafqazda sülh və sabitlik üçün müəyyən humanist addımlar atılması lazım gələcəksə Azərbaycan sülh və sabitlik naminə müəyyən addım ata bilər".

Politoloq onu da dedi ki, seçkilər yaxınlaşdıqca Bakıda mühakimə olunan separatçı erməni canilər məsələsini rəqibləri Nikol Paşinyana qarşı istifadə etməkdədirlər: "Rəqibləri Nikol Paşinyanı qəsdən Vardanyan və digər mühakimə olunan ermənilərin azad olunmasını istəməməkdə ittiham edirlər. Məqsəd Paşinyanın ictimai nüfuzunu aşağı salmaqdır. Paşinyan seçki öncəsi xüsusilə Ruben Vardanyanın həbsdən azad olunmasında maraqlı olmamaqda əslində haqlıdır. Çünki Vardanyan azadlıqda Paşinyana daha çox problemlər yarada bilər. Ruben Ermənistan daxilində onsuz da gərgin olan siyasi vəziyyəti daha da gərginləşdirə və ölkə daxilində hakimiyyətin ziyanına olan proseslər meydana gətirər. Azərbaycan həbsxanasından "buraxılan" Vardanyan özünü Ermənistan cəmiyyətinə "qəhrəman" kimi sırımağa çalışar və cəmiyyətin müəyyən qismini saxta təbliğatına inandıra bilər".

Qeyd edək ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyana prokuror ömürlük həbs cəzası istəyib.

Prokuror çıxışının davamında Vardanyanın Xankəndi şəhərində yerləşmiş ofisinə baxış keçirilməsi barədə 26.10.2023-cü il tarixli baxış protokolu, əməliyyat məlumatları və digər sənədlərə istinad edərək bildirib: "Həmin sənədlərlə təsdiq edilib ki, təqsirləndirilən şəxs 2020-ci ilin dekabr ayının əvvəllərində cinayətkar birliyə qoşulub".

Vardanyanın Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə qarşı hərbi əməliyyatlarda iştirak etmiş "VoMa" adlı terror təşkilatının yaradıcısı Vartanov Vladimir (Vova) Levanoviçlə (Levani) əlaqələrindən, "WhatsApp" mobil tətbiqi vasitəsilə danışıqlarından də bəhs edib. Qeyd edilib ki, "VoMa" 2013-cü il yanvarın 11-də təsis edilib, Ermənistan Respublikasında, eləcə də Azərbaycan Respublikasının vaxtilə işğal altında olmuş ərazilərində cinayətkar birliyin (təşkilatın) struktur bölməsi kimi mütəşəkkil dəstə şəklində fəaliyyət göstərib.

Vardanyanın Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə qarşı hərbi əməliyyatlarda iştirak etmiş "VoMa" adlı terror təşkilatının yaradıcısı Vartanov Vladimir (Vova) Levanoviçlə (Levani) əlaqələrindən, "WhatsApp" mobil tətbiqi vasitəsilə danışıqlarından də bəhs edib. Qeyd edilib ki, "VoMa" 2013-cü il yanvarın 11-də təsis edilib, Ermənistan Respublikasında, eləcə də Azərbaycan Respublikasının vaxtilə işğal altında olmuş ərazilərində cinayətkar birliyin (təşkilatın) struktur bölməsi kimi mütəşəkkil dəstə şəklində fəaliyyət göstərib.

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

MÜSAVAT
N 232 (8842) 20 dekabr 2025

# İrəvanda Bakı yanacağı - Tiflisə xəbərdarlıq, Moskva və Tehrana isə...

## Azərbaycanın neft məhsullarının Ermənistana nəqli bu ölkənin şimal və cənub qonşularımızdan enerji asılılığını azalda bilər - Rusiya və İran prosesi poza bilərmi?




**Azərbaycanla Ermənistan arasında sülh gündəliyinə uyğun olaraq dekabrın 18-də ölkəmizdən Ermənistana neft məhsullarının ixracına başlanıb. Ötən ay Qəbələdə Baş nazirin müavini Şahin Mustafayev və onun erməni həmkarı Mher Qriqoryanın görüşündə əldə edilmiş razılaşmaya əsasən SOCAR tərəfindən istehsal edilmiş Aİ-95 markalı 22 vaqon benzin yola salınıb.**

Neft məhsullarımızın Ermənistana ixracı sırf kommersiya xarakterlidir və benzin beynəlxalq bazar qiymətlərinə uyğun satılacaq. Baş nazir Nikol Paşinyan Bakıdan ilk benzin tədarükünü alqışlayıb. O həmçinin Gürcüstana xəbərdarlıq edib ki, normal tranzit tarifləri tətbiq edilməzsə, Bakı və İrəvan alternativ marşrutlar tapacaq. “Ümid edirəm ki, ya bu məsələlər həll olunacaq, ya da iqtisadi qurumlar alternativ idxal və ixrac marşrutları tapacaqlar”, - Paşinyan vurğulayıb.

Qeyd edək ki, Gürcüstan tərəfi neft məhsullarının tranzitinə görə fantastik rüsum (hər ton üçün 92 dollar) tələb eləmişdi. Hərçənd dekabrın 8-də Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinin yaydığı açıqlamada bildirilirdi ki, baş nazir İrakli Kobaxidzenin qərarı ilə Gürcüstan Dəmir Yollarına göstəriş verilib ki, yüklərin dəmiryolu ilə ilk dəfə tamamilə pulsuz daşınması həyata keçiriləcək. Bəs sonrakı yüklər hansı qiymətə daşınacaq?

Bütün hallarda son olaylar Bakı ilə İrəvanın sülh gündəliyinin deklarativ xarakter daşımadığını, eyni zamanda, praktiki müstəvidə gerçəkləşdirildiyini əyani şəkildə göstərir. O sırada Azərbaycan neft məhsullarının Ermənistana ixracı sülh prosesinin iqtisadi dividendləri konsepsiyasını əks etdirir, iki ölkə arasında iqtisadi-ticarət əlaqələrinin yaradılması istiqamətdə mühüm addımdır. Bu həm də regionda iqtisadi-ticarət əlaqələrinin inkişafına, gələcək dövrdə region ölkələri arasında əlaqələrin genişlənməsinə töhfə verəcək.

Məlumdur ki, Ermənistan Rusiya və İrandan enerji məhsulları alan ölkədir. Elə isə neft məhsullarımızın İrəvana göndərilməsinə Moskva və Tehranın cavab reaksiyası necə ola bilər? Buna əngəl olmaq cəhdləri, yaxud hansısa təxribatlar mümkündürmü?

Professor Qabil Hüseynli Azərbaycan və Ermənistanın kənar təhlükələrə qarşı birgə hərəkət etməli olduğunu zəruri sayır. Rusiya və İranın həmişə sülhə qarşı çıxdığını deyən professorun fikrincə, səbəb regionda hakimi - mütləq olmaq ambisiyasından irəli gəlir. “Cənubi Qafqazda köklü dəyişikliklər bölgənin iki böyük dövlətinin tarixi planlarını pozub. İndi onlardan asılı olmayan hadisələr baş verir. Bu da Rusiya və İranı narahat edir. Onlardan biri də münaqişənin başa çatmasıdır. İkinci səbəb isə Türkiyənin regionda güclənməsidir. Türkiyə isə NATO-nun cənub cinahına nəzarət edən deməkdir. Xüsusən də Rusiya təkhakimliyi itirdiyi üçün qəzəblidir. Amma günahı özündə axtarması lazımdır”, - Qabil Hüseynli qeyd edib. Bunun səbəbinin ilk növbədə Ukraynaya hərbi təcavüz olduğunu bildirən politoloq, digər faktorun Kremlin Azərbaycana və Ermənistana münasibətində görür: “Əsasən də Ermənistana təbəssi kimi baxması nəticə etibarı ilə Rusiyadan uzaqlaşmağa səbəb oldu. Rusiya həmişə keçmiş münaqişənin qalmasında maraqlı olub. Dünənə qədər də Qarabağın statusunu gələcək nəsillərə saxlamaq istəyirdilər. Pyotrdan qalan vəsiyyəti sona çatdıra bilmədilər. Sözümün canı budur ki, indi yaranan sülh çox kövrəkdir, yeni etimad mühiti yaranır. Ona görə də bunu pozmaq istəyənlərə Bakı və İrəvan birlikdə cavab verməli, həmişə həssas olmalıdırlar ki, istənilən kiçik təxribat cəhdi beşikdə boğulsun”.

Professor sonda əlavə edib ki, İran Rusiyanın müttəfiqi olaraq bu prosesi pozmaq istərdi, xüsusən də Zəngəzur dəhlizinə görə, amma buna müvəffəq olmaq indi çətindir, təsir rıçaqları əldən çıxıb: “Amma neft məhsullarının getməsi iqtisadi yanaşma cəhətdən Moskva və Tehranı bir o qədər narahat etməyəcək. Azərbaycan Ermənistanın enerji təminatında böyük rol ala bilməz, amma onun şimal və cənub qonşularımızdan asılılığını qismən azalda bilər. İstənilən halda neft və qaz, eləcə də enerji bu ölkələrdən gəlir, bir də Metsamor AES rol oynayır. Bakı neftinin nəqli iqtisadi deyil, daha çox siyasi əhəmiyyət kəsb edir”.

Siyasi təhlilçi Asif Nərimanlının sözlərinə görə, bu, sülh prosesində xüsusi əhəmiyyət kəsb edir: “Birincisi, Azərbaycan və Ermənistan arasında neft məhsullarının ixracı ilə bağlı razılaşma sülh prosesinin praktiki müstəviyə daşınmasıdır. İkincisi, bu addım Azərbaycan və Ermənistan arasına etimad quruculuğuna mühüm töhfə verir. Sülhün davamlı və dayanıqlı olmasını şərtləndirən əsas amil iki xalq arasında etimad mühitinin yaradılmasıdır. 30 illik müharibə dövrü və düşmənçilik bu məsələdə ciddi çətinliklər yaradıb və belə görünür ki, vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərləri etimadın qurulması üçün kifayət etməyə bilər. Bu kontekstdə neft məhsullarının ixracı - Azərbaycan və Ermənistan arasında iqtisadi-ticarət əlaqələrinin yaradılması düşmənçiliyin arxa fona keçməsində əhəmiyyətli rol oynayacaq, çünki dövlətlər arasında iqtisadi əlaqələr həm də cəmiyyətlərin yaxınlaşması, qarşılıqlı ticarətin yaranması deməkdir. Üçüncüsü, burada Azərbaycan və Ermənistanın iqtisadi-ticarət əlaqələrinin hər iki ölkəyə və regiona verəcəyi siyasi-iqtisadi dividend önəmlidir”.

Onun fikrincə, Azərbaycan Ermənistanın timsalında yeni bazar qazanır: “Nəzərə almaq lazımdır ki, neft məhsullarının Ermənistana ixracı sırf kommersiya xarakterlidir və benzin beynəlxalq bazar qiymətlərinə uyğun satılacaq. Bu, Azərbaycan üçün iqtisadi gəlir gətirəcək. Eyni zamanda, ikitərəfli ticarət əlaqələrinin qurulması ilə siyasi yaxınlaşma güclənəcək ki, sülh prosesinin tamamlanması üçün bu, vacib elementdir. Azərbaycandan neft məhsullarını idxal etmək Ermənistana ilk növbədə enerji təhlükəsizliyini şaxələndirmək imkanı verir və məhdud mənbələrdən asılılığını azaldır. Və bu, həm də rəsmi İrəvanın daha müstəqil siyasət yürütmək perspektivlərini gücləndirir”.

❑ **Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”**



## Paşinyan Putindən orden alan agenti tutdurur

**Hüquq-mühafizə orqanlarına erməni kilsəsinin “Rusiya və Yeni Naxçıvan” yeparxiyasının rəhbəri arxiyepiskop Yezras Nersisyanı Ermənistana daxil olduğu anda saxlamaq barədə göstəriş verilib.**

Bu barədə “Joqovurd” qəzeti məlumat yayıb. Nəşr yazıb ki, məsələ onun gəlişinə qədər gözləmə rejimində saxlanılır. Rəsmi qurumlar hələlik bu məlumatla bağlı açıq şərh verməyiblər.

“Joqovurd”un mənbələrinə görə, məhz bu səbəbdən Yezras uzun müddətdir Ermənistana gəlmir: “Katolikos II Qaregin də Baş nazir Nikol Paşinyanın mümkün göstərişindən xəbərdardırlar və bunu hakimiyyət-kilsə münasibətlərinin gərginləşməsi fonunda kilsə dairələrinə qarşı növbəti təzyiq təzahürü kimi qiymətləndirirlər”.

Xatırladaq ki, Nikol Paşinyan dəfələrlə II Qareginin kiçik qardaşı Yezras Nersisyan barədə açıq bəyanatla çıxış edərək, onun KQB (Rusiya) agenti olduğunu bildirib. Hazırda katolikosun digər qardaşı Gevorq Nersisyan və qardaşı oğlu Ambarsum Nersisyan da həbsdədir.

Yezras Nersisyan bir müddət əvvəl Rusiya Prezidenti Vladimir Putin tərəfindən dövlət ordeni ilə mükafatlandırılıb.



## Rusiya Ermənistana müdaxiləyə hazırlaşır

**“Avropa İttifaqının (Aİ) parlament seçkiləri ərəfəsində Ermənistana xarici informasiya müdaxiləsinə qarşı mübarizə sahəsində göstərdiyi dəstək ölkəni Brüssel üçün əlverişli olan xarici siyasət kursu çərçivəsində saxlamağa yönəlib”.**

Teleqraf xəbər verir ki, bunu erməni politoloq Ara Poqosyan deyib.

Poqosyanın fikrincə, söhbət faktiki olaraq, Ermənistanda Qərblə Rusiya arasında qarşıdurmanın lokallaşdırılmış davamından gedir. “Moldovada olduğu kimi, Ermənistana da Qərb üçün sərfəli olan siyasi kursdan yayınmağa imkan verməmək cəhdi edilir”.

Politoloq əlavə edib ki, Ermənistandakı mövcud idarəetmə modeli Aİ-ni qane edir: “Bu addımlar 2026-cı il parlament seçkiləri ərəfəsində daxili siyasi vəziyyətə ciddi təsir göstərəcək. Artıq arzuolunmaz müxalifləri üçüncü ölkələrdən gələn "hibrid təsir" iddiası ilə vurmaqla zərərsizləşdirmək cəhdləri görünür".

Poqosyan hesab edir ki, ölkə daxilində mümkün məhdudiyyətlər və repressiv tədbirlər Aİ tərəfindən verilən xarici legitimləşdirmə ilə kompensasiya olunacaq: “Beləliklə, mövcud hakimiyyəti qane edən seçki nəticələri beynəlxalq səviyyədə tanına bilər ki, bu da hər iki tərəfin maraqlarına cavab verir. Ermənistan hakimiyyəti üçün Qərbin mövqeyi prinsipial əhəmiyyət daşıyır, çünki bu gün onların əsas dayağı məhz Qərbdir”.

Ekspertin sözlərinə görə, Moldovada da son seçkilərdən əvvəl Aİ-nin dəstəyi ilə əsas hədəf vəzifə arzuolunmaz siyasi qüvvələrin təcrid edilməsi olub.

Aİ xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas bundan əvvəl bəyan etmişdi ki, Ermənistan Moldovada tətbiq olunan model üzrə Brüsseldən yardım istəyib. Həmçinin, o, parlament seçkiləri yaxınlaşdıqca Rusiyadan Ermənistana hibrid hücumların artdığını söyləmiş, prosesə mümkün müdaxiləni istisna etməmişdi. Aİ-nin genişlənmə məsələləri üzrə komissarı Marta Kos isə dəstəyin həcminin 12 milyon avro təşkil edəcəyini açıqlamışdı. Kosun sözlərinə görə, bu vəsait informasiya manipulyasiyaları və xarici müdaxilə ilə mübarizə, kibertəhlükəsizliyin möhkəmləndirilməsi və müvafiq institutlarının hibrid təhdidlərə qarşı dayanıqlığının artırılmasına yönəldiləcək.

YENİ MÜSAVAT
N 232 (8842) 20 dekabr 2025

# Diqqət! Vətəndaşdan xəbərsiz işsizlik pulu tutulur

## Hüquqşünas səbəbinə aydınlıq gətirdi

**Kredit kartlarından pul çıxmalar vətəndaşlarda narazılıq yaradır. Sosial şəbəkədə məlumat paylaşan İnfoq-ram.az saytının baş redaktoru Əlizadə Emin feysbuk hesabında bu barədə yazıb: "Yoldaşımın kredit kartından işsizlik üçün sığorta pulu çıxdılar. 10 manat. 1 manat da kibertəhlükəsizlik vergisi".**

O, həyat yoldaşının hazırda heç bir yerdə işləmədiyini xatırladıb. İşsizliyə görə işsiz şəxsdən vergi tutulması təəccüb doğurub və sosial şəbəkə istifadəçiləri baş vermiş hadisəyə aydınlıq gətirməyə çalışsalar da, bir nəticə hasil olmayıb.

İqtisadçı Rauf Qarayev Sherg.az-a deyib ki, vətəndaşların kartlarından vəsaitin çıxılması yalnız razılıq əsasında ola bilər. Lakin yenə də vətəndaşdan xəbərsiz pultutmaların baş verdiyinə şahid oluruq: "Bank hər hansı komissiya məbləği, yaxud sığorta və ya xidmət haqqı tutursa, bununla bağlı vətəndaşa bildiriş göndərməlidir. Bankdan kredit kartı alan şəxslə bank arasında bağlanmış müqavilədə qeyd olunubsa ki, nəyəsə görə komissiya tutulacaq, hətta bu halda da vətəndaşa əvvəlcədən xəbərdarlıq bildirişi gəlməlidir. Müqavilələrdə qeyd olunur, nəyə görə komissiya haqqı tutulacaq. Amma yenə də kartdan vəsait çıxılmadan öncə bildiriş olmalıdır".

Qeyd edək ki, işsizlikdən sığorta tarifləri 30 iyun 2017-ci il tarixli, "İşsizlikdən sığorta haqqında" qanunla tənzimlənir.

Əslində, bu məsələnin hüquqi və sosial aspektləri həm fərdi vətəndaşların, həm də ümumilikdə cəmiyyətin hüquq müdafiəsi baxımından əhəmiyyət kəsb edir. Vətəndaşın razılığı olmadan, xüsusilə bankın müqavilə şərtlərində yer almayan xidmət haqları, vergi və ya digər ödənişlər adı altında vəsaitin çıxarılması ciddi hüquq pozuntusu sayıla bilər. Bu kimi hallar bankların etibarını zədələyir və müştəri hüquqlarının qorunmaması ilə bağlı ictimai narazılığa səbəb olur. Banklar və digər maliyyə qurumları üçün müştərilərin hüquqlarına hörmət, yalnız hüquqi öhdəlik deyil, həm də sosial məsuliyyətdir. Müştəri ilə münasibətlərin qurulmasında şəffaflıq və etibarlılıq vacibdir. Belə halların təkrarlanması yalnız hüquq pozuntularına yol açmaqla qalmır, eyni zamanda bankın ictimai imicini də zədələyir.

Bundan əlavə, bankların müştəriləri məlumatlandırmaq üçün daha çox vasitə istifadə etməsi vacibdir. Bu, yalnız hüquqi məsuliyyət deyil, həm də bankın müştəri etibarını qorumağa yönəlmiş strategiyadır. Ödənişlərin və çıxarışların səbəbi barədə müştərilərə izahat vermək onların hüquqlarını qorumağa yönəlmiş mühüm addımdır.



Mövzunu hüquqşünas Polad Mehdiyevlə müzakirə etdik. "Yeni Müsavat"a açıqlamasında P.Mehdiyev bildirdi ki, banklar tərəfindən vətəndaşların debet yaxud kredit kartlarından onların açıq şəkildə razılığı olmadan hər hansı vəsaitin çıxarılması yolverilməzdir: "Azərbaycan qanunvericiliyinə görə, bank-müştəri münasibətləri müqavilə əsasında formalaşır. Kartdan hər hansı vəsaitin silinməsi iki halda mümkün ola bilər: vətəndaş öncədən məlumatlandırıldıqda; vətəndaşın üzərində hər hansı öhdəlik olduqda. Bu hallardan kənar vəsaitin çıxarılması hüquq pozuntusu hesab olunur. Bank vergi tuta bilməz, yalnız xidmət haqqı tuta bilər, lakin bununla bağlı vətəndaşlara öncədən aydın məlumat verilməlidir. Vəsaitin məbləği, mənbəyi və hüquqi əsası barədə izahat təqdim olunmalıdır. Bildirişsiz, izahatsız silinmələr istehlakçı hüquqlarının pozulmasıdır. Əksər hallarda isə banklar pul çıxararkən yaxud hər hansı xidmətdən istifadə edərkən komissiya xərclərini göstərirlər".

❑ **Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**



# İŞİD-ə qoşulmaq istəyirdi, DTX həbsə göndərdi

**Sosial şəbəkələrdə dini ekstremist materialları yayan, ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və digər hərəkətlər (terror aktı) törətməyə təkrar açıq çağırışlar edən 1995-ci il təvəllüdlü Quba sakini Mehrab Dadaşovun barəsində Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) başlanılmış cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

Teleqraf-ın məlumatına görə, Quba Rayon Məhkəməsində keçirilən prosesdə təqsirləndirilən şəxs 8 il müddətinə azadlıqdan məhrum edilib.

Mehrab Dadaşov məhkəmədə ifadəsində təqsirini etiraf edib.

2020-ci ildən öz istəyi ilə ibadət etməyə başladığını bildirən Mehrab Dadaşov sosial şəbəkədə etdiyi paylaşımlarına görə DTX-yə dəvət edilib. Mehraba əməllərində cinayət tərkibinin əlamətləri olduğu bildirilərək onunla profilaktik söhbət aparılıb:

"Xəbərdarlığa məhəl qoymaraq instaqramda yeni hesab açdım. Terror təşkilatlarının tərkibində döyüşən ekstremistlər, döyüşlərdə istifadə olunan silahlar, eləcə də cihad və ya cihada çağırış barədə foto-video materialları paylaşdım. Yenidən xəbərdarlıq olunsa da, əqidəmdən dönməyəcəyimi bildirdim. İŞİD-ə olan sevgimdən əməlimi düzgün hesab etdim. Əlverişli şərait yaranacağı halda hicrət etməyi və döyüşlərdə iştirak etməyi qərara aldım. Qarabağ uğrunda gedən döyüşlərdə həlak olanları deyil, din uğrunda döyüşlərdə ölənləri şəhid hesab edirəm. Sonradan tutulacağımdan qorxduğum üçün Rusiyanın Rostov şəhərinə getdim. Daha sonra barəmdə axtarış olmadığını düşünərək Qubaya qayıtdım. Bir müddət paylaşım etmədim".

Məlum olub ki, M.Dadaşov növbəti paylaşımlarında Azərbaycan dövlətini dini dövlət etmək yolunda mübarizəyə dair çağırışlar edib.

"Digərləri ilə birgə cihad etmək, ayağa qalxıb üsyanlar etmək istədim. Hər hansı bir islam dövlətindən dəstək gələcəyi təqdirdə bu arzuya daha tez çatacağımı düşündüm".

DTX-nin diqqətdə saxladığı və unuduluğunu zənn edən M.Dadaşov ömrünün 8 ilini dəmir barmaqlıqlar arasında keçirəcək.

# Pensiya yaşı artır: İşləməyən qadınları nə gözləyir?



**Gələn ildən qadınların pensiya yaşı artırılır. Qərara əsasən, 2026-cı ilin 1 iyul tarixindən etibarən qadınlar üçün pensiya yaşı 6 ay artırılaraq 64 yaş 6 aydan 65 yaşa çatdırılacaq. Bununla qadınların pensiya yaşının mərhələli şəkildə artırılması prosesi yekunlaşacaq və bundan sonra bu hədd 65 yaş səviyyəsində sabit qalacaq. Uzun müddətdir ki, qadınların pensiya yaşının azaldılması ilə bağlı müzakirələr aparılsa da, məsələ qanunvericilik səviyyəsində öz həllini tapmayıb.**

Bəs heç bir yerdə işləməyən qadınların sosial təminatı necə həyata keçiriləcək?

İqtisadçı ekspert Akif Nəsirli Qaynarinfo-ya açıqlamasında bildirib ki, işləməyən qadınlar pensiya hüququ formalaşmadığı halda yaşa görə müavinət alırlar:

"Yaşa görə müavinət əmək pensiyası deyil, lakin sosial təminat mexanizmi kimi çıxış edir. Pensiya yaşının artırılması məsələsinə gəldikdə isə, problem təkcə yaş həddində deyil, sistemin özündədir".

Ekspertin sözlərinə görə, hazırda pensiya mexanizmi sığorta kapitalının 144 aya - yeni 12 ilə bölünməsi prinsipi üzərində qurulub:

"65 yaşında pensiyaya çıxan vətəndaşın sığorta kapitalı 144 aya bölünür və bu əsasda aylıq pensiya məbləği hesablanır. Bu mexanizm faktiki olaraq dövlətin pensiyaçıya 12 il müddətində ödəniş etməyi nəzərdə tutan modelidir. Nəzəri baxımdan bu təminat 77 yaşa qədər hesablanır".

Akif Nəsirli hesab edir ki, problem bu hesablamanın ölkədəki orta ömür uzunluğu göstəriciləri ilə uyğun gəlməməsidir:

"Rəsmi statistikaya görə, Azərbaycanda kişilərin orta ömür uzunluğu 71, qadınların isə 75 yaş göstərilir. Orta hesabla bu rəqəm 74 yaş edir. BMT-nin hesablamalarında isə bu göstərici bir qədər aşağıdır. Hər iki halda, vətəndaş 65 yaşında pensiyaya çıxır, amma orta hesabla 74 yaşında vəfat edir. Bu isə o deməkdir ki, real olaraq pensiyaçı 12 il deyil, təxminən 9 il pensiya alır".

Ekspert bu uyğunsuzluğu sosial baxımdan problemli hesab edir:

"Məsələ pensiya yaşının artırılıb-artırılmamasından daha çox, sistemin ədalətli qurulmamasıdır. Əgər pensiya kapitalı 12 il üçün hesablanırsa, vətəndaşın da orta hesabla bu müddəti yaşaması nəzərə alınmalıdır. Əks halda, mexanizm formal xarakter daşıyır".

Akif Nəsirli qeyd edib ki, bu problemi aradan qaldırmaq üçün alternativ yanaşmalar müzakirə oluna bilər:

"Konseptual olaraq iki yol var: ya pensiya yaşı aşağı salınmalıdır, ya da sığorta kapitalı 12 ilə deyil, 8-9 ilə bölünməlidir. Bu halda pensiya məbləği artar və sistem real demoqrafik göstəricilərlə uyğunlaşar. Bundan başqa, əgər vətəndaş pensiya müddətini tam istifadə edə bilmirsə, istifadə olunmamış hissənin müəyyən hissəsinin ailə üzvlərinə və ya varislərinə ötürülməsi mexanizmi konseptual yanaşma kimi müzakirə oluna bilər. Hazırkı qanunvericilikdə belə mexanizm yoxdur, lakin sosial ədalət baxımından nəzərdən keçirilə bilər".

Ekspert əlavə edib ki, hazırkı mexanizm vətəndaşların böyük hissəsinin pensiya təminatından tam istifadə etməsinə imkan vermir:

"Bir çox hallarda vətəndaş pensiya yaşına çatır, lakin qısa müddət sonra vəfat edir. Bu isə onu göstərir ki, pensiya sistemi yalnız riyazi deyil, həm də sosial reallıqlar nəzərə alınmaqla qurulmalıdır".

# İki həftə qaldı - Salonlar, bərbərlər və kafelər...

## Deputat deyir ki, bu obyektlərin xərclərində hər hansı yeni artım baş verməyəcək, sadəcə...

**Məlumdur ki, "ƏDV geri al" mexanizmi bərbərxanalar, gözəllik salonları və kosmetoloji mərkəzlər tərəfindən göstərilən xidmətlərə də şamil olunacaq. Bu, Milli Məclisin müzakirəyə çıxarılan Vergi Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.**

Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), bərbərxanalar, gözəllik salonları və kosmetoloji mərkəzlər tərəfindən göstərilən xidmətlərə görə ödənilmiş ƏDV-nin qaytarılması qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edəcək.

Bu qərar qeyd edilən sahələrdə xidmətlərin qiymətinə təsir göstərə bilər. İqtisadçı-ekspert Akif Nəsirli bildirib ki, mikro və kiçik sahibkarlar əlavə dəyər vergisinə (ƏDV) cəlb olunmamalıdır. Onun sözlərinə görə, əks halda bu, mikro və kiçik sahibkarların vergi yükünün ağırlaşmasına gətirib çıxara bilər.

İqtisadçı Natiq Cəfərli isə "Bakı-Xəbər"ə deyib ki, istənilən sahədə vergi və rüsumların artırılması qiymət artımına səbəb olur: "Bütün vergi artımları biznesə yükdürsə, onlar da qiyməti artırmaq məcburiyyətində olacaq, başqa çıxış yolları yoxdur. Qiymət artımı üstəgəl inflyasiya sahibkarlıqla məşğul olanları çətin vəziyyətə salacaq. Nəzərə almaq lazımdır ki, iş adamları, kiçik sahibkarlar da istehlakçıdır. Ərzağın satış qiymətinin artması və vergilərin artması istər-istəməz qiymət artımına səbəb olacaq.



Bərbərxana, gözəllik salonu işlədən şəxslər xidmətlərdə qiymət artımına gedəcək".

Bəs çıxış yolu nədir, qiymət artımı qaçılmazdırmı?

İqtisadçı deputat Vüqar Bayramov mövzu ilə bağlı "Yeni Müsavat"a açıqlamasında bildirib ki, "ƏDV geri al" mexanizmi yalnız əlavə dəyər vergisi ödəyicisi olan obyektlərə şamil edilir: "ƏDV geri al mexanizmi bərbərxanalar, gözəllik salonları və kosmetoloji mərkəzlərdə yalnız ƏDV ödəyicisi olan qurumlar üçün tətbiq edilə bilər." Əgər hər hansı salon və ya mərkəz əlavə dəyər vergisi ödəyicisi deyilsə, yəni sadələşdirilmiş vergi ödəyicisidirsə, bu halda həmin obyektdə 'ƏDV geri al' mexanizmi tətbiq olunmayacaq. Çünki bu mexanizm yalnız ƏDV ödəyicisi olan ticarət və xidmət obyektlərinə aiddir.

Praktiki olaraq ƏDV ilə işləməyən, sadələşdirilmiş vergi ödəyicisi olan salon və mərkəzlərin xərclərində heç bir artım baş verməyəcək. Onlar üçün 'ƏDV geri al' mexanizminə qoşulmaq məcburi deyil.

ƏDV ödəyicisi olan salonlar və mərkəzlər isə bu mexanizmlə işləməyə davam edəcəklər. Bu o deməkdir ki, onların ödədikləri əlavə dəyər vergisinin bir hissəsi istehlakçılara geri qaytarılacaq. Qeyd edim ki, bu mərkəzlər əvvəlki dövrlərdə də ƏDV ödəyicisi olublar və ödədikləri ƏDV-nin müəyyən hissəsi geri qaytarılıb. Bu baxımdan onların xərclərində hər hansı yeni artım baş vermir. Burada söhbət yeni ƏDV ödənişindən yox, mövcud ƏDV-nin geri qaytarılması mexanizmindən gedir".

Məlumat üçün bildirək ki, dünya praktikasında əlavə dəyər vergisinin (ƏDV, VAT) tətbiqi və geri qaytarılması mexanizmi əsasən mallar üzərində qurulub və xidmət sahəsini çox vaxt əhatə etmir. Əksər ölkələrdə ƏDV istehlak vergisi kimi qiymətə daxil edilir və istehlakçı onu birbaşa ödəyir. Verginin geri qaytarılması isə ya bizneslər üçün xərclərin kompensasiyası, ya da turistlər üçün stimullaşdırıcı mexanizm kimi tətbiq olunur.

Avropa İttifaqı ölkələrində geniş yayılmış VAT refund sistemi əsasən xarici turistlərə şamil edilir və yalnız mallara aiddir. Turist aldığı məhsulu ölkədən çıxardığını sübut etdikdən sonra ödədiyi verginin bir hissəsini geri ala bilir. Xidmətlər - otel, restoran, bərbərxana, gözəllik salonu və oxşar sahələr - bu sistemdən demək olar ki, kənarda qalır. Yəni Avropada saç kəsimi, kosmetoloji xidmət və ya kafedə yemək üçün ödənilən VAT geri qaytarılmır.

Bir sıra ölkələrdə xidmət sektorunda vergi yükü fərqli üsullarla tənzimlənir. Məsələn, bəzi Avropa ölkələrində ictimai iaşə və turizm sahəsi üçün ƏDV dərəcəsi aşağı salınır. Bu zaman vergi geri qaytarılmır, amma aşağı faiz hesabına qiymət artımının qarşısı qismən alınır. Bu, xüsusilə pandemiya dövründə restoran və kafelərin dəstəklənməsi üçün geniş tətbiq olunmuşdu.

Asiya ölkələrində də oxşar yanaşma var. Cənubi Koreyada müəyyən dövrlərdə xarici turistlər üçün kosmetoloji və estetik xidmətlərə görə verginin geri qaytarılması ilə bağlı pilot proqramlar tətbiq edilib. Lakin bu proqramlar daimi xarakter daşımayıb və əsasən turizmin stimullaşdırılmasına yönəlib. Əksər hallarda yerli istehlakçılar üçün xidmətlərdə VAT refund mexanizmi mövcud deyil.

Yaxın regionda, məsələn, Özbəkistanda dövlət müəyyən sahələri stimullaşdırmaq məqsədilə bizneslərə vergi güzəştləri tətbiq edir. Burada mexanizm istehlakçıya birbaşa "geri al" formasında yox, sahibkarın ödədiyi ƏDV-nin bir hissəsinin kompensasiyası və ya vergi yükünün azaldılması kimi işləyir. Məqsəd qiymət artımının qarşısını almaq və kölgə iqtisadiyyatını azaltmaqdır.

**❑ Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# "Səssiz" gəlib qəfil aparan ölümlər - Genetik amil, yoxsa...

## Həkim deyir ki, ildə ən azı iki dəfə kardioloq müayinəsindən keçmək lazımdır

**Xəbər verildiyi kimi, Sumqayıtda Klassik Xalq Cəbhəsi Partiyasının (KXCP) sədri Mirmahmud Mirəlioğlunun 18 yaşlı nəvəsi Müşfiq Fəttayev ürək tutmasından dünyasını dəyişib. Gəncin səhhətindən heç bir şikayəti olmadığı, idmanla (boksla) məşğul olduğu deyilir.**

Maraqlıdır ki, illər öncə, 2009-cu ilin oktyabrında partiya sədrinin 11-ci sinif şagirdi olan oğlu Mircəlil Fəttayev də qəfil ürək tutmasından vəfat etmişdi. 2012-ci ildə isə partiya sədrinin 28 yaşlı qızı Mahirə qəfil dünyasını dəyişib. 4 il sonra, 2016-cı ildə onun bacısı oğlu, 11-ci sinif şagirdi Ümid yenə qəfil vəfat edib.

Bu faciələrdə genetik amil, xroniki ürək qüsurları nə dərəcədə rol oynaya bilərdi? İnsanlar, valideynlər nələrə xüsusi diqqət etməlidir? Simptomsuz keçən ürək xəstəliklərindən necə qorunmalı?

Həkim-kardioloq Jalə Abbasova mövzu ilə bağlı "Yeni Müsavat"a açıqlamasında bildirib ki, bu cür hallar ailədə irsi ürək patologiyalarının mövcud-



luğunu göstərir: "Bir ailədə bir neçə nəfərin qəfil ürək tutmasından vəfat etməsi həmin şəxslərdə irsi ürək xəstəliklərinin ola biləcəyini düşündürür. Belə hallarda ailə üzvləri, heç bir şikayətləri olmasa belə, ildə ən azı iki dəfə kardioloq müayinəsindən keçməlidirlər. Müayinə zamanı elektrokardioqrafiya (EKQ), exokardioqrafiya, ümumi və biokimyəvi qan analizləri, eləcə də qan laxtalanma göstəriciləri yoxlanılmalıdır".

Həkim deyir ki, qəfil ürək tutmalarının müxtəlif səbəbləri var: "Bunlara uzun QT sindromu, Brugada sindromu, müxtəlif kardiomiopatiyalar, ritm pozğunluqları və anadangəlmə ürək qüsurları daxildir. Bəzi hallarda bu patologiyalar uzun müddət heç bir klinik əlamət vermir. Xəstə adi müayinəyə gəldikdə belə, EKQ vasitəsilə ritm pozğunluqları, exokardioqrafiya ilə isə anadangəlmə ürək qüsurları aşkar edilə bilər.

Əgər xəstə ürək döyüntüsündən şikayət edirsə, sutkalıq Holter monitorinqi vasitəsilə gün ərzində ürək ritmini qeydə alırıq və gizli ritm pozğunluqlarını müəyyən edə bilirik. Ona görə də biz hər zaman vurğulayırıq ki, kardioloji müayinələr yalnız şikayət olduqda deyil, profilaktik məqsədlə də aparılmalıdır. Çünki şikayət yaranarkən artıq xəstəliyin gecikmiş mərhələsi ilə qarşılaşırıq. Ailəsində gənc yaşlarda qəfil ölüm halları olan şəxslər uşaqlıq dövründən etibarən, heç bir simptom olmasa belə, mütəmadi olaraq kardioloji müayinələrdən keçməlidirlər".

Dünyada tanınmış kardioloqların fikirlərinə görə də, bir ailədə gənc yaşlarda baş verən ardıcıl qəfil ölümlər təsadüf hesab edilmir və əksər hallarda irsi ürək xəstəlikləri ilə əlaqələndirilir. Harvard Tibb Məktəbi ilə əməkdaşlıq etmiş, hipertrofik kardiomiopatiya üzrə aparıcı mütəxəssis Barry J. Maron bildirir ki, gənclərdə və idmanla məşğul olan şəxslərdə qəfil ürək ölümü çox zaman əvvəldən simptom verməyən genetik ürək patologiyalarının nəticəsidir. Onun sözlərinə görə, ailə tarixçəsində bir neçə belə ölüm halı varsa, bu artıq ciddi tibbi xəbərdarlıqdır və həmin ailə üzvləri şikayətləri olmasa belə mütləq kardioloji və genetik müayinələrdən keçməlidirlər.

Mayo Klinikasının genetik ürək ritm pozğunluqları üzrə tanınmış mütəxəssisi Michael Ackerman qeyd edir ki, uzun QT sindromu, Brugada sindromu və digər irsi aritmiyalar uzun müddət heç bir əlamət vermədən inkişaf edə bilər. Onun sözlərinə görə, bu xəstəliklərdə ilk simptom bəzən elə qəfil ölüm olur. Ackerman hesab edir ki, ailəsində izah olunmayan erkən ölümlər olan şəxslər uşaqlıq dövründən etibarən elektrokardioqrafiya, exokardioqrafiya və riskli hallarda genetik testlərdən keçməlidir. Xüsusilə idmanla məşğul olan gənclər üçün kardioloji nəzarət daha ciddi aparılmalıdır.

Londonun St. George's Universitetinin idman kardiologiyası üzrə aparıcı mütəxəssisi Sanjay Sharma isə vurğulayır ki, "idman ürəyi hər zaman qoruyur" fikri bütün hallarda doğru deyil. Onun sözlərinə görə, irsi ürək xəstəlikləri olan gənclərdə intensiv fiziki yüklənmə, xüsusilə boks, futbol və digər yüksək gərginlik tələb edən idman növləri qəfil ürək dayanması riskini artıra bilər. Məhz bu səbəbdən bir çox Avropa ölkələrində gənc idmançılar üçün məcburi EKQ müayinələri tətbiq olunur.

Dünya miqyasında ən nüfuzlu kardioloqlardan biri hesab olunan Valentin Fuster də profilaktik müayinələrin əhəmiyyətini xüsusi qeyd edir. O bildirir ki, ürək xəstəliklərinin ən təhlükəli tərəfi onların uzun müddət simptomsuz keçməsidir və müayinələr aparılmadıqda ilk əlamət çox zaman faciə ilə nəticələnir. Fuster valideynlərə tövsiyə edir ki, uşaqlarda səbəbsiz huş itirmə, tez-tez halsızlıq, ürək döyüntüsü kimi hallar heç vaxt diqqətdən kənarda qalmamalı, ailə tarixçəsində olan ürək problemləri həkimdən gizlədilməməlidir.

**❑ Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**



# Bu şəxsləri 800 manat cərimə gözləyir

**Vəkil adından qanunsuz istifadəyə görə cərimələrin dispozisiyasında dəyişiklik ediləcək.**

"Unikal" xəbər verir ki, bu barədə məsələ Milli Məclisin dünən keçirilən iclasında müzakirəyə çıxarılan İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.

Mövcud qanunvericiliyə görə, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunda nəzərdə tutulmuş qaydada vəkil statusunu əldə etməmiş şəxs tərəfindən gəlir əldə etməklə vəkil adından istifadə olunmasına görə fiziki şəxslər 200 manatdan 300 manatadək məbləğdə, vəzifəli şəxslər 600 manatdan 800 manatadək məbləğdə cərimə edilir.

Layihəyə əsasən, Vəkillər Kollegiyasının üzvü olmayan şəxs tərəfindən gəlir əldə etməklə özünə münasibətdə və ya təşkilatının adında "vəkil" sözündən və bu sözün istifadə edildiyi ifadələrdən, eyni zamanda onların başqa dillərə tərcüməsindən istifadə olunmasına görə fiziki şəxslər 200 manatdan 300 manatadək məbləğdə, vəzifəli şəxslər 600 manatdan 800 manatadək məbləğdə cərimə ediləcək.

Müzakirələrdən sonra məsələ səsverməyə qoyularaq I oxunuşda qəbul edilib.

# Krediti və borcu olanlarla bağlı mühüm qərar

## Növbəti mərhələ məhkəmələrə daşınan problemli kreditlərlə bağlı olacaq




**Azərbaycan Ali Məhkəməsinin Mülki kollegiyası borca görə gecikdirmə faizlərinin hesablanması ilə bağlı vahid məhkəmə təcrübəsini formalaşdıran qərar qəbul edib.**

Ali Məhkəmənin yaydığı məlumata görə, məhkəmə mübahisəsi iddiaçının cavabdehdən pul borcunun vaxtında qaytarılmaması səbəbindən əlavə gecikdirmə faizlərinin tutulması tələbi ilə bağlı olub. Belə ki, iddiaçı daha əvvəl məhkəmə qərarları ilə tutulmuş əsas borc və faiz məbləğlərini birləşdirərək, həmin ümumi məbləğə yenidən gecikdirmə faizi hesablanmasını tələb edib. Birinci instansiya məhkəməsi iddianı rədd edib, apellyasiya məhkəməsi də həmin mövqe ilə razılaşıb, daha sonra hər iki tərəfin kassasiya şikayətləri üzrə işə Ali Məhkəmədə kassasiya qaydasında baxılıb.

Ali Məhkəmə qərarında vurğulayıb ki, Mülki Məcəllənin 445.7 və 449-cu maddələrinin məzmununa görə, gecikdirmə faizləri yalnız ödənilməmiş əsas borc məbləği üzrə və yalnız borcun qaytarıldığı günədək hesablanmalıdır. Daha əvvəl məhkəmə qərarı ilə tutulmuş faiz borcunun əsas borca əlavə edilərək həmin ümumi məbləğ üzərindən yenidən gecikdirmə faizinin hesablanması "faizdən faiz" tutulması ilə nəticələnir ki, bu da qanunvericiliklə qadağan edilir.

Ali Məhkəmə qeyd edib ki, faiz borcunun məhkəmə qərarı ilə tutulması onun hüquqi mahiyyətini dəyişmir və onu əsas borca çevirmir. Belə faiz alacağına yenidən faiz tələb edilməsi borclunun vəziyyətini qeyri-mütənasib şəkildə ağırlaşdırır və ədalət prinsipinə ziddir. Ali Məhkəmə həmçinin bildirib ki, kassasiya instansiyasının səlahiyyəti iş üzrə faktiki halları yenidən araşdırmaq deyil, aşağı instansiya məhkəmələri tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmadığını yoxlamaqdan ibarətdir. Bu baxımdan apellyasiya instansiyasının sübutlara verdiyi hüquqi qiymət və gəldiyi nəticə əsaslı hesab edilib. Nəticə etibarilə, Ali Məhkəmə kassasiya şikayətlərini təmin etməyərək apellyasiya instansiyası məhkəməsinin qətnaməsini dəyişdirilmədən qüvvədə saxlayıb.

Hüquqşünas, bank sahəsi üzrə mütəxəssis Əkrəm Həsənovun dediyinə görə, Azərbaycan Respublikası Mülki Məcəlləsi faizə faiz hesablanmasını birmənalı şəkildə qadağan edir: "Mülki Məcəllədə bununla bağlı konkret müddəalar var. Həmin müddəalar kreditin əsas borcuna görə hesablanmış faizlərin məbləği üzrə faiz hesablanmasını qadağan edir. Düzünü deyim, indiyədək tanış olduğum məhkəmə praktikasında faizlərin əsas borcun üstünə hesablanaraq, onlara birlikdə yenidən faiz hesablanması məsələsi üzrə iddialarda artım müşahidə etməmişəm. Buna görə də düşünürəm ki, Ali Məhkəmənin qərarı hansısa xüsusi iddia ilə bağlıdır, nəinki geniş yayılmış mənfi təcrübə ilə".

Qeyd edək ki, Azərbaycanda məhkəmə müstəvisində problemli kreditlərlə bağlı iddialar 2018-2020-ci illərdə pik səviyyəsinə çatıb. 2015-2016-cı illərdə baş verən devalvasiyalar yüz minlərlə insanın dollarla götürdüyü kreditlərin məbləğinin kəskin artmasına səbəb olmaqla onları ödənilməz hala gətirdi. Yüksək inflyasiya şəraitində xərcləri kəskin artan vətəndaşlar, biznes subyektləri kreditləri qaytarmaqda böyük çətinliklə üzləşdilər, problemli kreditlərin məbləği milyardlarla manat həddinə çatdı. Bu zaman banklar, bank olmayan kredit təşkilatları kütləvi şəkildə məhkəmələrdə iddialar qaldırmağa başladılar. Bu proses Prezident İlham Əliyevin 2019-cu ildə imzaladığı fərmanı ilə devalvasiyaların kreditlərdə yaratdığı əlavə xərclərin dövlət hesabına maliyyələşdirilməsinə start verildikdən sonra səngiməyə başladı.

Həmin dövrdə məhkəmələrdə maraqlı bir proses diqqəti cəlb etdi: bir çox hallarda məhkəmələr əsas borca görə faizlərin qaytarılmasına dair qərarlarda yalnız məhkəmə qərarı qəbul olunana qədər hesablanan faizlərin ödənməsi qeyd olunurdu. Yəni faiz borcunun məbləği olaraq məhkəmə qərarı qəbul olunana qədər hesablanan məbləği fiksə edərək, borcludan yalnız onun tutulmasına qərar verilirdi. Halbuki məhkəmə qərarından sonra da əsas borc məbləğinin qaytarılmasına uzun müddət vaxt ayrılırdı. Banklar bu müddətdə əsas borca görə faiz hesablaya bilmirdilər. Bu təcrübəyə görə əksər hallarda kredit götürən şəxslər işin məhkəməyə çıxarılmasında maraqlı olurdular. Uzun müzakirələrdən, Azərbaycan Banklar Assosiasiyasının araşdırmadan sonra məlum oldu ki, bəzi işlər üzrə vəkillərin Azərbaycan Mərkəzi Bankının qüvvədə olmayan qaydalarına istinad etməsi belə bir təcrübənin meydana çıxmasına səbəb olub. Həmin qaydaların qüvvədən düşdüyünə dair rəsmi açıqlamalardan sonra tədricən məhkəmələrdə krediti verən tərəfin zərərinə olan fiksə olunmuş faiz borcuna dair qərarların çıxarılması dayandırıldı.

İndi Ali Məhkəmənin çıxardığı qərar belə deməyə əsas verir ki, bu dəfə kredit götürən tərəfin xeyrinə olan qərar qəbul edilib: banklara və bank olmayan kredit təşkilatlarının əsas borca hesablanmış faiz borcuna yenidən faiz hesablamalarının qarşısı alınır.

Onu da qeyd edək ki, Ali Məhkəmənin qərarı ölkədə problemli kreditlərin məbləğinin artdığı bir dövrə təsadüf edir. Belə ki, Azərbaycan Mərkəzi Bankının məlumatına görə, 2025-ci il noyabrın 1-nə ölkənin bank və digər kredit təşkilatlarının kredit portfeli əvvəlki ilin eyni dövrü ilə müqayisədə 8.3 faiz artaraq 31 milyard 169.4 milyon manat təşkil edib.Ümumi kredit portfelinin 25 milyard 701.7 milyon manatı və ya 82.5 faizi uzunmüddətli kreditlərin payına düşüb. Qısamüddətli kreditlərin həcmi isə 5 milyard 467.7 milyon manat olub ki, bu da illik müqayisədə 18.2 faiz artım deməkdir. Uzunmüddətli kreditlər üzrə artım tempi 6.4 faiz təşkil edib.

Kreditlərin 94.3 faizi banklar, 5.7 faizi isə bank olmayan kredit təşkilatları (BOKT) və kredit ittifaqları tərəfindən verilib.

Hesabat dövründə ödəmə vaxtı keçmiş kreditlərin məbləği illik ifadədə 13.5 faiz artaraq 544.8 milyon manat təşkil edib. Statistikadan aydın olur ki, problemli kreditlərin həcmi oktyabrın 1-i ilə müqayisədə 3,2 faiz artıb. Bu göstərici cari ilin əvvəlindəki eyni göstərici ilə müqayisədə isə 21,3 faiz artıb.

Vaxtı keçmiş kreditlərin ümumi kredit portfelində xüsusi çəkisi 1.7 faiz səviyyəsində qeydə alınıb. Mərkəzi Bankın statistikası göstərir ki, problemli kreditlərin həcmindəki artım ümumi kredit portfelinin həcmindəki artımdan daha sürətlə gedir: Bir ildə ümumi kredit portfeli 8,3 faiz, problemli kreditlər isə 13,5 faiz artıb. Nəzərə alsaq ki, ümumi kredit portfelindəki artımın mühüm hissəsi istehlak və biznes kreditlərinin hesabına yaranıb, onda problemli kreditləri həcmindəki yüksəlişin kifayət qədər təhlükəli olduğunu deyə bilərik. Belə ki, bank sektorunda kreditləşmənin əsas mənbəyi olan istehlak kreditləri portfeli noyabrın 1-nə 9 milyard 232,4 milyon manata yüksəlib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 954,6 milyon manat və ya 11,5 faiz artım deməkdir: Ötən ilin eyni dövründə əhaliyə verilən istehlak kreditlərinin həcmi 8 milyard 277,8 milyon manat təşkil etmişdi. Artım bütün müqayisə dövrlərində davamlı olub. Ötən ilin sonu (8 milyard 445 milyon manat) ilə müqayisədə portfel 787,4 milyon manat (9,3 faiz) böyüyüb. Təkcə son bir ayda isə 48,9 milyon manat (0,5 faiz) artım qeydə alınıb.

Bu ilin noyabr ayının 1-nə Azərbaycan banklarının biznes kredit portfelinin həcmi 15,623 milyard manat təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 78,8 milyon manat və ya 0,5 faiz, ötən ilin eyni dövrünə nisbətən isə 995,3 milyon manat və yaxud 6,8 faiz çoxdur.

İstehlak və biznes kreditlərindəki bu artım göstərir ki, problemli kreditlərdəki artım da onların hesabınadır. Məlumdur ki, Azərbaycan Mərkəzi Bankı devalvasiyalardan sonra ölkə üzrə kredit götürənlərin sayına dair məlumatları açıqlamağı dayandırıb. Ən son 2015-ci ildə açıqlanan məlumatda 2,5 milyona yaxın kredit götürüldüyü əksini tapmışdı. Son 10 ildə kredit şərtlərinin yumşalması, kredit portfelinin sürətlə artımı ölkədə borcalanan fiziki və hüquqi şəxslərin də sayının artmasını şərtləndirir. Bu mənada, Ali Məhkəmənin qeyd olunan qərarı növbəti mərhələdə məhkəmələrə daşınan problemli kredit iddialarında borclulara qarşı haqsız qərarların qəbulunun qarşısını almış olacaq.

**Dünya SAKİT, "Yeni Müsavat"**

# Qumarbaz stomatoloq saxlanıldı



**Bakıda onlayn qumar oynayan stomatoloq saxlanılıb.**

Qaynarinfo-nun məlumatına görə, 1996-cı ildə Bakı şəhərində anadan olmuş E.R. barəsində İnzibati Xətalar Məcəlləsinin 525-ci maddəsi ilə protokol tərtib edilib və iş məhkəməyə göndərilib.

Məhkəmədə məlum olub ki, E.R. 2025-ci ilin iyul ayının əvvəllərindən oktyabr ayının əvvəlinə qədər Nərimanov rayonu ərazisində "PinUp" onlayn qumar saytında qumar oyunları oynayıb. O, Daxili İşlər Nazirliyi Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi tərəfindən saxlanılaraq barəsində hüquqi tədbir görülüb.

Məhkəmənin hökmü ilə təqsirləndirilən şəxs 3000 manat miqdarında inzibati cərimə olunub.

Qeyd edək ki, İnzibati Xətalar Məcəlləsinin 525-ci maddəsinə əsasən, qumar oyununda iştirak etmə, yəni qumar oynamağa görə - oyun ləvazimatı, habelə qumara qoyulmuş pul vəsaitləri və ya digər əmlak, qazanılmış uduş, mükafat və ya digər gəlir müsadirə edilməklə üç min manat məbləğində cərimə edilir.

YENİ MÜSAVAT
N 232 (8842) 20 dekabr 2025

# Müharibənin gedişatı dəyişir - Kiyevə bu silahlar da veriləcək?

## Ukraynada savaş cəbhə xəttindəki toqquşmalarla məhdudlaşmır, proses strateji dərinlik mərhələsinə keçir

**"Ukrayna üçün uzaqmənzilli silahlar müharibənin gedişatını dəyişdirə və Avropanın təhlükəsizliyini gücləndirə bilər". Belə bir açıqlamanı ukraynalı aviasiya üzrə ekspert Valeri Romanenko verib. "Avropa üçün ideal vəziyyət bizə uzaqmənzilli silahlar verməlri və Rusiyanın hərbi sənayesinin əhəmiyyətli bir hissəsini məhv etməyimiz olardı.**



Avropa Rusiyanın mümkün işğalına hazırlaşmaq üçün xeyli vaxt qazanardı. Avropalılar hələlik bunu bir fürsət kimi görmürlər", - deyə o bildirib (Axar.az). Ekspertin fikrincə, Ukrayna kifayət qədər müasir raketlə Rusiyanın hərbi-sənaye kompleksinin əhəmiyyətli bir hissəsini sıradan çıxara bilər: "Daha sonra ruslar sıfırdan başlamağa, Çin təchizatı və komponentlərinə əsaslanan texnoloji proseslər qurmağa məcbur olacaqlar". O, həmçinin qeyd edib ki, raketlərin və "Şahid" PUA-larının istehsal olunduğu yerlər hava hücumundan müdafiə sistemləri tərəfindən ciddi şəkildə qorunur: "Əlbəttə ki, biz ora zərbə endirməyə çalışırıq, amma təəssüf ki, ora nüfuz etmək çətindir". Bu silahlar Kiyevə veriləcəkmi və həqiqətən də onlar müharibənin gedişatı dəyişə bilərmi? Bu arada Belarus Prezidenti Aleksandr Lukaşenko iddia deyib ki, Ukrayna Rusiyanı məğlub edə biləcəyinə inanırsa və müharibəni davam etdirməyə hazırdırsa, qoy döyüşsün. "Döyüşlər indiki kimi davam edərsə, Ukrayna xəritədən silinəcək", - Lukaşenko əlavə edib.

Hərbi ekspert Ramil Məmmədli "Yeni Müsavat"a deyib ki, son açıqlamalar göstərir ki, Ukrayna müharibəsi artıq yalnız cəbhə xəttindəki toqquşmalarla məhdudlaşmır, proses strateji dərinlik mərhələsinə keçir: "Valeri Romanenkonun vurğuladığı uzaqmənzilli silahlar məsələsi əslində Kiyevin deyil, Qərbin hansı nöqtəyə qədər getməyə hazır olması sualını gündəmə gətirir. Bu gün Ukraynanın əsas problemi canlı qüvvə yox, vasitə problemidir. Cəbhədə döyüşən bölmələr hələ də müqavimət göstərir, lakin Rusiyanın hərbi-sənaye kompleksi, raket istehsalı, PUA zavodları və logistik mərkəzləri arxa cəbhədə toxunulmaz qaldıqca Moskva müharibəni uzada bilir. Romanenkonun dediyi kimi, əgər Ukraynaya real mənada 500-1000 km mənzilli raketlər verilsəydi, bu artıq taktiki deyil, strateji oyunun dəyişməsi demək olardı".

Hərbi ekspert bildirib ki, burada bir məqam da nəzərə alınmalıdır: "Qərb, xüsusilə Avropa, hələ də Ukraynanı öz yerinə vuruşan tərəfdaş kimi görür, amma Rusiyanın tam hərbi-sənaye çöküşünü istəmir. Çünki bu halda Moskvanın reaksiyası proqnozlaşdırılmaz ola bilər. Ona görə də Ukraynaya verilən silahlar indiyə qədər "qalib gəlmək üçün yox, uduzmamaq üçün" hesablanıb. Digər tərəfdən, Rusiya artıq iqtisadi və texnoloji baxımdan Çin asılılığına sürüşür. Əgər Ukrayna uzaqmənzilli zərbələrlə Rusiya zavodlarını, raket istehsal xətlərini sıradan çıxara bilsə, Moskva illərlə geriyə düşəcək. Bu isə Kreml üçün Ukraynadakı mövqelərdən daha təhlükəlidir. Məhz buna görə də Rusiya bu obyektləri çoxqatlı hava hücumundan müdafiə sistemləri ilə qoruyur. Lukaşenkonun açıqlaması isə daha çox psixoloji müharibə elementidir. "Ukrayna xəritədən silinəcək" ifadəsi reallıqdan çox, Kremlə mesajdır: Minsk hələ də Moskvanın yanındadır. Amma fakt budur ki, Ukrayna artıq üç ildən çoxdur döyüşür və "xəritədən silinmə" ssenarisi baş tutmayıb".

Hərbi ekspert hazırda qeyd olunan silahların Kiyevə verilib-verilməyəcəyidir: "Qərb Ukraynaya tədricən məhdud sayda uzaqmənzilli sistemlər verə bilər, amma Rusiyanın dərinliklərinə sistemli zərbələrə yaşıl işıq yandırmaq üçün ya Kreml daha böyük eskalasiya etməlidir, ya da Qərb öz təhlükəsizliyini artıq Ukrayna cəbhəsində həll etməyə qərar verməlidir. Müharibənin gedişatını dəyişən silah təkcə raket deyil, siyasi iradədir. O iradə formalaşarsa, silah da veriləcək. Əks halda Ukrayna bu müharibəni uzadacaq, amma həlledici dönüş yaratmaq çətin olacaq. Bu müharibənin taleyi Kiyevdə yox, Vaşinqton və Brüsseldə həll olunur".

Hərbi ekspert Rövşən Məhərrəmovun qənaətinə görə hazırkı mərhələdə Ukrayna müharibəsi artıq sadə cəbhə qarşıdurması deyil, strateji və texnoloji rəqabətə çevrilib. O, "Yeni Müsavat"a açıqlamasında qeyd edib ki, Valeri Romanenkonun açıqlaması silahların Ukraynaya veriləcəyinə işarə edir: "Uzaqmənzilli raketlər və PUA-lar müharibənin gedişatını dəyişə biləcək əsas faktorlardandır. Amma bu, təkcə silah məsələsi deyil, strateji planlama və reallıqla bağlıdır. Ukrayna Rusiyanın hərbi-sənaye kompleksinə ciddi zərbə endirə bilsə, Moskva illərlə texnoloji və istehsal potensialını bərpa etməkdə çətinlik çəkəcək. Bu, həm taktiki, həm də strateji üstünlük deməkdir. Amma burada problem odur ki, bu obyektlər yüksək səviyyəli hava hücumundan müdafiə sistemləri ilə qorunur və ora nüfuz etmək asan deyil. Yəni Ukraynanın effektivliyi həm silahın növündən, həm də onu necə və harada istifadə etməsindən asılıdır. Belarus Prezidenti Lukaşenkonun açıqlaması isə psixoloji təsir xarakterlidir. Onun "Ukrayna xəritədən silinəcək" fikri, əslində, Rusiyanın tərəfdaşlarını qorxu altında saxlamaq üçün verilən mesajdır. Amma real vəziyyət göstərir ki, Ukrayna öz müqavimətini uzun müddət saxlaya bilir və hərbi potensialını artırır. Əgər Qərb Ukraynaya uzaqmənzilli raket sistemləri verəcəksə, bu, yalnız döyüşün taktikasını dəyişməyəcək, həm də strateji balansı sarsıda bilər. Lakin bunun üçün həm siyasi qərar, həm də risklərin dəyərləndirilməsi lazımdır".

Hərbi ekspert qeyd edib ki, hazırda verilən silahlar əsasən mövcud cəbhə xəttini saxlamaq və Rusiyanın hücumlarını əngəlləmək məqsədinə xidmət edir: "Ümumilikdə demək olar ki, müharibənin gedişatı yalnız silahdan asılı deyil, strateji iradə və planlamadan da asılıdır. Kiyevə lazımi imkanlar yaradılarsa, rəqibin arxa cəbhəsi ciddi risk altında qalacaq, yoxsa, döyüşlər uzanacaq və itkilər artacaq".

**❑ E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Arayikdən etiraf: "Bu hadisələr hərbi cinayətdir"



**"Burada müharibə cinayətləri təqdim olundu. Səmimi desəm, böyük hissəsi ilə burada tanış oldum".**

Bu sözləri Bakı Hərbi Məhkəməsində Ermənistan Respublikası vətəndaşlarının ittiham olunduğu cinayət işi üzrə məhkəmə prosesində son söz nitqi zamanı təqsirəndirilən şəxs Arayik Harutyunyan deyib.

"Mən çox məlumatlı adamam. Amma Kəlbəcərdəki Tunel hadisəsini burada bildim. Məsələn, Bəylik bağı hadisəsini burada bilmişəm. Əlbəttə, bunlar hərbi cinayətlərdir və öz günahkarları var. Əgər günahkarlar bu dünyada cəzalanmayıblarsa, o biri dünyada öz əməllərinə görə cəzalanacaqlar", - deyə o bildirib.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

# Putin Qərbi hədələdi: "Cavab verəcəksiniz!"




**Vladimir Putin keçirdiyi canlı mətbuat konfransında bir daha Ukrayna ilə bağlı işğal planlarını təkrarlayıb. Putin çoxlarının düşündüyünün və "Tramp planı"nda göstərilənlərin əksinə olaraq, yalnız bütün Donetsk vilayəti ərazisinin işğalı şərtilə sülhə razı olmadığını bəyan edib.**

Putin bildirib ki, Rusiya yalnız "2024-cü ilin iyun ayında müəyyən edilmiş prinsiplər əsasında" müharibənin dayandırılması ilə bağlı dialoq aparmağa hazırdır.

Xatırladaq ki, onun dediyi "prinsiplər" Putin tərəfindən ötən ilin iyununda səslendirilib. Həmin vaxt Putin müharibəni dayandırmaq üçün şərtlərini irəli sürüb - Ukraynanın NATO-dan imtinası, Donetsk, Luqansk, Xerson və Zaporojye vilayətlərinin bütün ərazisinin Rusiyaya qatılması və "müharibənin ilkin səbəblərinin aradan qaldırılması".

Bununla da Putin "Tramp planı" əsasında belə sülhə hazır olmadığını bəyan etmiş olub. "Rusiya Ukraynanın münaqişəyə son qoymağa hazır olduğunu görmür". Putin İlin yekunları ilə bağlı keçirdiyi mətbuat konfransında bildirib. Onun sözlərinə görə, Moskva Ukraynadakı münaqişəni sülh yolu ilə həll etməyə hazırdır və bunu istəyir. Putin bildirib ki, Ukrayna ordusu bütün cəbhələrdə geri çəkilir. Rusiya prezidenti Krasnıy Limanın tezliklə alınacağını və irəliləyişin Slavyanska doğru davam edəcəyini söyləyib. Avropa İttifaqının Rusiya aktivlərini mənimsəmək cəhdi oğurluq deyil, soyğunçuluqdur".

Putin bildirib. Onun sözlərinə görə, oğurluq gizli olur, bu isə gizli deyil, Aİ-nin etdiyi soyğunçuluqdur. Putin vurğulayıb ki, "başqalarının pullarını talamaqla bağlı qərarlar qəbul etmək Aİ üçün asan deyil".

"Bu, sadəcə onun imicinə zərbə deyil, bu, Avrozonaya inamı sarsıdır", - Rusiya Prezidenti əlavə edib. O qeyd edib ki, bundan sonra digər ölkələr də qızıl və valyuta ehtiyatları üçün qorxmağa başlayacaqlar.

Rusiya Prezidenti məhkəmələrdə maraqlarını müdafiə edəcəklərini, siyasi təsirdən asılı olmayan bir yurisdiksiya tapmağa çalışacaqlarını bəyan edib: "Nə oğurlayıblarsa, bir gün onu geri qaytarmalı olacaqlar".

YENİ MÜSAVAT
N 232 (8842) 20 dekabr 2025

# Paytaxtda ilk: "ağıllı işıqforlar" gəlir - Qəzalar azalacaq?

## Şəhərin bəzi ərazilərində belə işıqforlar sınaq üçün işə salınıb - ekspertin gözləntisi

**Bakıda ilk dəfə nəqliyyat axınının fasiləsiz hərəkətinə şərait yaradan "ağıllı işıqforlar" (adaptiv) quraşdırılıb. Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi (NİİM) məlumat yayıb.**

Bildirilib ki, bu məqsədlə iki xarici ölkənin mütəxəssisləri birlikdə pilot layihəyə start veriblər. İlkin olaraq paytaxtın Binəqədi rayonu, Azadlıq prospekti ilə Cəfər Xəndan, Məsud Davudoğlu küçələrinin kəsişməsində, 115 nömrəli tam orta məktəbin qarşısında (piyada svetoforu), həmçinin Cəfər Xəndan küçəsi ilə Əhməd Rəcəbli, Anar Şükürov, İbrahimpaşa Dadaşov, Şövkət Məmmədova və Əlişir Nəvai küçələrinin kəsişməsində quraşdırılan belə svetoforlar sınaq müddətində işə salınıb.

Adaptiv işıqforların ənənəvi svetoforlardan fərqi nədir?

"Ağıllı svetoforlar" yol üzərində yerləşdirilən sensorlar, kameralar və bəzən radarlar vasitəsilə hərəkət intensivliyini ölçür. Toplanan məlumat mərkəzi idarəetmə proqramına ötürülür və həmin proqram real vaxt rejimində hansı istiqamətdə işıqforun yaşıl işığının müddətinin artıb-azalması ilə bağlı qərar verir. Ənənəvi svetoforlar sabit qrafiklə işləyir, adaptiv sistem isə daim dəyişən vəziyyətə uyğunlaşır.

Yeni sistem nəqliyyatın sıx olduğu pik saatlarda və qəza hallarında necə reaksiya verəcək?

Pik saatlarda nəqliyyat axını sürətlə artır. Ənənəvi svetoforlar bu artımı nəzərə almır, nəticədə uzun növbələr yaranır. Adaptiv sistem isə avtomatik olaraq həmin istiqamətə daha çox yaşıl işıq ayırır. Qəza halında və ya yol bağlandıqda isə sistem dərhal vəziyyəti analiz edir, istiqamətlərin prioritetini dəyişir və yükün balanslaşdırılmasına şərait yaradır.

Adaptiv işıqforlar yol hərəkəti iştirakçıları üçün səmərəlilik baxımından daha faydalı olacaq. Yeni yolda nəqliyyat sıxlığı olmadığı vaxtlarda svetoforların yaşıl işığı daimi yanmaqla, vaxt itkisinin qarşısı alınmış olacaq.

Pilot layihənin ilkin tətbiq edildiyi yollarda nəqliyyat sıxlığının neçə faizə qədər azalması gözlənilir?

Xarici təcrübəyə əsasən, adaptiv sistemlərin tətbiqi nəqliyyat sıxlığını 15-30 faiz azaldır.

Qeyd edək ki, pilot layihənin nəticəsindən asılı olaraq "ağıllı svetoforlar"ın digər küçə və prospektlərdə də quraşdırılması nəzərdə tutulur.

Bəs "ağıllı işıqoforlar"ın qəzalın sayına ciddi təsiri gözlənilirmi?

Mövzu ilə bağlı nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov "Yeni Müsavat"a danışıb. Ekspert qeyd edib ki, "ağıllı svetoforlar" şəhər nəqliyyatının real vaxt rejimində idarə olunmasını təmin edən müasir və yüksək texnoloji sistemlərdir:

"Bu sistemləri adi, ənənəvi svetoforlardan fərqləndirən əsas cəhət ondan ibarətdir ki, ağıllı svetoforlar mövcud vəziyyətə uyğun olaraq qərar qəbul edir. Yeni onlar sabit vaxt intervalına əsasən deyil, yol hərəkətinin intensivliyinə, nəqliyyat axınına və real situasiyaya uyğun şəkildə fəaliyyət göstərir.

Bir neçə il əvvəl Bakı şəhərində sınaq məqsədilə ağıllı svetofor sistemlərindən biri quraşdırılmışdı və aparılan müşahidələr göstərdi ki, bu sistem kifayət qədər effektiv nəticə verir. Məhz bu müsbət nəticələrdən sonra belə bir qərara




gəlinib ki, Bakı şəhərində nəqliyyat axınının və yol sıxlığının idarə olunması baxımından ağıllı işıqforlar ən ideal və səmərəli variantlardan biridir. Bunun əsas səbəbi isə ağıllı svetofor sistemlərində müxtəlif və müasir texnologiyalardan geniş şəkildə istifadə olunmasıdır.

Bu işıqforlarda xüsusi kameralar quraşdırılır, avtomobillərin sayı və hərəkət intensivliyi ölçülür. Eyni zamanda, sistemdə mövcud olan xüsusi sensorlar vasitəsilə nəqliyyat vasitələrinin hərəkəti və dayanması müşahidə edilir, analiz olunur və qiymətləndirilir. Zərurət yarandıqda GPS və mobil data məlumatlarından da istifadə edilir. Bundan əlavə, ağıllı svetoforlar avtobuslar və digər operativ nəqliyyat vasitələrini - təcili yardım avtomobillərini, polis maşınlarını, yanğınsöndürənləri tanımaq imkanına malikdir. Bu isə fövqəladə hallarda həmin nəqliyyat vasitələrinin daha sürətli və maneəsiz hərəkətini təmin etməyə şərait yaradır.

Sistem həmçinin süni intellekt alqoritmləri ilə tənzimlənir. Bu alqoritmlər vasitəsilə hansı istiqamətdə nəqliyyat sıxlığının daha çox olduğu müəyyən edilir və məhz həmin istiqamətə yaşıl işıq daha uzun müddət yönəldilir. Beləliklə, ağıllı svetoforlar dinamik, çevik və adaptiv şəkildə işləyən bir idarəetmə mexanizmi yaradır".

Eldəniz Cəfərov vurğulayıb ki, bu sistemin üstün cəhətləri kifayət qədər çoxdur:

"Aparılan hesablamalara görə, ağıllı işıqforlar tıxacların azalmasına, sürücülərin gözləmə vaxtının qısalmasına ciddi təsir göstərir. Eyni zamanda, nəqliyyat vasitələrinin uzun müddət dayanmasının qarşısı alındığı üçün yanacaq sərfiyyatı azalır. Bu isə öz növbəsində avtomobillərin atmosferə buraxdığı zərərli qazların miqdarının azalmasına gətirib çıxarır. Nəticə etibarilə, ağıllı işıqforlar həm ekoloji baxımdan, həm də şəhər həyatının rahatlığı baxımından son dərəcə əhəmiyyətli bir sistemdir.

Bu baxımdan, belə sistemlərin quraşdırılması vacibdir və zəruridir. Ümid edirəm ki, Bakı şəhərinin küçə və prospektlərində ağıllı svetoforlar geniş şəkildə tətbiq olunacaq və şəhər nəqliyyatında real mənada yüksək effektivlik yaradacaq.

Eyni zamanda, ağıllı svetoforlar mərkəzləşdirilmiş nəqliyyat axınının idarə olunması sisteminə qoşularaq avtobus zolaqları ilə inteqrasiya oluna bilər. Hətta velosiped zolaqları ilə də uyğunlaşdırılaraq daha təhlükəsiz və rahat hərəkət şəraiti yaradıla bilər. Zəruri hallarda, xüsusilə fövqəladə vəziyyətlər zamanı bu sistem avtomatik şəkildə istiqamətləndirməni həyata keçirəcək, nəqliyyat axınını yenidən tənzimləyəcək və şəhər daxilində hərəkətin fasiləsizliyini təmin edəcək".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Peşə təhsilinin şefi dəyişdi, bəs keyfiyyəti...

## Ekspert: "Cəmiyyətə izah olunmalıdır ki, peşə təhsili ikincidərəcəli deyil"



**Elm və Təhsil Nazirliyinin Təhsilin iqtisadiyyatı şöbəsinin müdiri İlqar Bayramlı Peşə Təhsili üzrə Dövlət Agentliyinə direktor təyin edilib. Bu barədə elm və təhsil naziri Emin Əmrullayev əmr imzalayıb. Lakin bu gün peşə təhsili bərbad vəziyyətdədir. Yeni rəhbərliyin gəlişi ilə kompleks işlər görülməlidir.**

Əmək bazarının tələbləri göstərir ki, peşə sahiblərinə böyük ehtiyac var, lakin cəmiyyətin bir qismi hələ də bu istiqaməti ikincidərəcəli sayır. Dövlət proqramları, müxtəlif layihələr və beynəlxalq əməkdaşlıqlar vasitəsilə peşə təhsilinin nüfuzunu artırmaq üçün addımlar atılsa da, valideynlər və gənclər arasında formalaşmış stereotiplər problemin kökündə dayanır.

"Təhsil haqqında" qanunun 22-ci maddəsində peşə təhsili ayrıca pillə kimi təsdiqlənir və orada açıq şəkildə göstərilir ki, peşə təhsili əmək bazarının tələblərinə uyğun kadr hazırlamalıdır. Ancaq qanunda yazılanlarla real vəziyyət arasında boşluq var. Dövlət İmtahan Mərkəzinin qəbul mexanizmi faktiki olaraq bütün ixtisasları ali məktəblərə yönəltdiyindən, gənclərin seçim azadlığı məhdudlaşır. Xidmət sektoru üzrə bərbər, aşpaz, avtomexanik, qaynaqçı, elektrik, texniki xidmət mütəxəssisi kimi ixtisasların böyük əksəriyyəti peşə məktəblərində olmalı ikən indi bunların bir qismi də ali məktəblərin tabeliyinə verilib. Bu yanaşma həm gənclərin vaxtını uzadır, həm də əmək bazarına kadr çıxışını ləngidir.

Peşə təhsilinin yeni şefi hansısa dəyişikliklər edə bilərmi?

Mövzu ilə bağlı təhsil mütəxəssisi Elçin Əfəndi "Yeni Müsavat"a danışıb. Mütəxəssis təəssüflə qeyd edib ki, ölkədə peşə təhsili ilə bağlı cəmiyyət səviyyəsində formalaşmış ciddi bir mənfi stereotip mövcuddur:

"Bu stereotip uzun illər ərzində yanlış təsəvvürlər əsasında yaranıb və bu gün də öz təsirini qoruyub saxlayır. Hesab edirəm ki, bu yanlış yanaşmanın aradan qaldırılması üçün həm Peşə Təhsili üzrə Dövlət Agentliyi, həm də müvafiq nazirliklər tərəfindən məqsədyönlü təbliğat və sistemli maarifləndirmə işləri həyata keçirilməlidir. Cəmiyyətə aydın və düzgün şəkildə izah olunmalıdır ki, peşə təhsili ikinci dərəcəli deyil, əksinə, əmək bazarının real tələblərinə cavab verən vacib bir təhsil istiqamətidir.

Bu gün cəmiyyətdə və hətta bir çox iş yerlərində ali təhsil anlayışı sanki mütləq tələb kimi təqdim olunur. Məhz bu yanaşma nəticəsində cəmiyyətin əsas marağı yalnız ali təhsilə yönəlir. Lakin mövcud əmək bazarına diqqətlə nəzər salsaq, görərik ki, hazırda açıq olan və real ehtiyac yaradan iş yerlərinin böyük əksəriyyəti məhz peşə təhsili istiqamətinə aiddir. Bu baxımdan peşə təhsilinin əhəmiyyəti danılmazdır.

Ölkədə mövcud olan iş yerlərinin əksəriyyəti gözəllik salonları, aşpazlıq və iaşə sektoru, turizm və otelçilik sahəsi, mehmanxana təsərrüfatı, bağbanlıq və kənd təsərrüfatı, avtomobil ustalığı və digər texniki ixtisaslar üzrədir. Yeni peşə təhsili istiqamətində əmək fəaliyyətinə başlamaq üçün kifayət qədər geniş və real iş imkanları mövcuddur. Buna baxmayaraq, cəmiyyətdə hələ də belə bir yanlış düşüncə var ki, ali təhsil alan hər kəs avtomatik şəkildə işlə təmin olunacaq. Təəssüf ki, reallıq bunu təsdiqləmir".

Elçin Əfəndi qeyd edib ki, son dövrlərin müşahidələrinə görə ali təhsil almış şəxslərin əhəmiyyətli bir hissəsi sonrakı mərhələdə yenidən peşə təhsili istiqamətinə yönəlməyə məcbur qalır:

"Məhz bundan sonra onlar real əmək fəaliyyətinə başlayırlar. Bu fakt özü-özlüyündə göstərir ki, peşə təhsili əmək bazarına çıxış baxımından daha çevik və effektiv mexanizmdir.

Peşə Təhsili üzrə Dövlət Agentliyi müəyyən işlər görsə də, hələ də bu sahədə çatışmayan məqamlar mövcuddur. Düşünürəm ki, yeni rəhbərlik bu çatışmazlıqları aydın şəkildə görərək onların aradan qaldırılması istiqamətində mühüm və sistemli addımlar ata bilər".

Mütəxəssis vurğulayıb ki, məzunların iş imkanlarının yaxşılaşdırılması məqsədilə konkret tədbirlər planı hazırlanmalı, birbaşa mövcud olan iş imkanları real şəkildə ictimaiyyətə təqdim edilməlidir:

"Bu cür şəffaf və açıq yanaşma, şübhəsiz ki, peşə təhsilinə marağın daha da artmasına səbəb olacaq. Əlavə məqamlar da mövcuddur və düşünürəm ki, prosesin gedişində Agentliyin rəhbərliyi bu məsələləri yaxşı bilir və müvafiq istiqamətdə zəruri addımlar ata bilər".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 232 (8842) 20 dekabr 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**

# Ölkədə uşaq azalır, işçi qüvvəsi təhlükədə

## Sosioloq demoqrafik risklərə ciddi yanaşmağı vacib sayır

**2025-ci ildə Azərbaycan əhalisinin artım tempi nəzərəçarpacaq dərəcədə zəifləyib və bu, ölkənin uzunmüddətli demoqrafik inkişafı üçün ciddi siqnal hesab olunur. Dövlət Statistika Komitəsinin açıqladığı rəsmi məlumatlara görə, 2025-ci ilin yanvar-oktyabr ayları ərzində ölkə əhalisinin sayı yalnız 32109 nəfər artaraq, illik 0,3% artım göstərib.**



Ümumilikdə, 2025-ci il noyabrın 1-i vəziyyətinə əhalinin sayı 10.256.998 nəfərə çatıb. Statistik göstəricilər göstərir ki, əvvəlki illərlə müqayisədə əhali artımının tempi azalmaqda davam edir. Məsələn, 2024-cü ilin yanvar-noyabr aylarında əhali 37766 nəfər və ya 0,4% artmışdı, 2023-cü ildə isə artım 53625 nəfər, yəni 0,5% təşkil etmişdi. Bu tendensiya onu göstərir ki, əhali artımı mütəmadi olsa da, illik artım tempi getdikcə zəifləyir və uzunmüddətli perspektivdə ciddi diqqət tələb edir.

Əhalinin azalmaqda olan artım tempi xüsusilə təhsil sektorunda özünü göstərir. Belə ki, 2025-ci ildə birinci sinfə gedən uşaqların sayı təxminən 130 min nəfər olub. Halbuki 2017-2018-ci tədris ilində bu rəqəm 164523 nəfər təşkil edirdi. Yəni, son 6-7 il ərzində birinci sinfə gedən uşaqların sayı təxminən 32 min nəfər azalıb, bu isə ümumi göstəricinin 20%-dən çoxuna bərabərdir. Mütəxəssislər xəbərdarlıq edirlər ki, əgər bu trend davam edərsə, 10 ildən sonra birinci sinfə gedən uşaqların sayı 100 min nəfərin altına düşə bilər, bu isə təhsil sistemində ciddi boşluqlara, məktəblərin səmərəliliyinin azalmasına və siniflərdə uşaqların sayının kritik səviyyəyə enməsinə səbəb olacaq.

Doğum səviyyəsinin azalmasının əsas səbəblərindən biri böyük şəhərlərdə ailələrin az sayda uşaq dünyaya gətirməyə üstünlük verməsidir. Müasir dövrdə valideynlər adətən "az, amma keyfiyyətli" prinsipi ilə uşaqlarını böyütmək istəyirlər. Bu isə uşaqların təhsilinə, sağlamlığına və gələcək inkişafına daha çox diqqət ayrılması ilə bağlıdır. Eyni zamanda, mənzil, iş və sosial təminat problemləri də doğum səviyyəsinə birbaşa təsir göstərir. Gənc ailələr üçün həyatın sosial və iqtisadi çətinlikləri, yüksək mənzil qiymətləri və iş imkanlarının məhdudluğu uşaq sayının azalmasına səbəb olur.

Sosioloqlar bildirirlər ki, əgər bu trend davam edərsə, yaxın gələcəkdə ölkədə gənc işçi qüvvəsinin çatışmazlığı yaranacaq. Bu isə həm istehsal, həm xidmət sektoru, həm də innovasiya və texnologiya sahələrinə mənfi təsir göstərəcək. Uşaqların və gənclərin azalması nəticəsində gələcəkdə bəzi məktəblər boş qalacaq, siniflərdə uşaq sayı azalacaq və təhsil şəbəkəsinin səmərəliliyi aşağı düşəcək. Ən böyük resurs olan gənc beyinlər ölkənin innovasiya və texnologiya sahələrində rəqabət qabiliyyətini təmin edir. Əgər uşaq və gənclərin sayı azalarsa, Azərbaycanın iqtisadi dinamizmi və texnoloji inkişaf potensialı da zəifləyə bilər.

Bu mənzərə həm də sosial-iqtisadi risklər yaradır. Azalan əhali gələcəkdə pensiya sistemi, sosial təminat və sağlamlıq sektoru üçün də ciddi problemlər yaradacaq. Gənc işçi qüvvəsinin azlığı nəticəsində işçi bazarında tələbat artır, əmək haqları yüksəlir və bu, biznes üçün əlavə yük yaradır. Eyni zamanda, əhalinin qocalması sosial xidmətlərin yükünü artıraraq, dövlət büdcəsi üzərində əlavə təzyiq yaradacaq.

Bu səbəbdən ekspertlər təklif edirlər ki, mövcud tendensiyanı dəyişmək üçün dövlət və cəmiyyət birgə hərəkət etməli, uşaqlı ailələr üçün real güzəştlər, uşaqpulu proqramları və digər dəstəkləyici mexanizmlər tətbiq edilməlidir. Məqsəd həm əhali artımını təmin etmək, həm də gənc nəsil üçün sosial təminatı gücləndirməkdir.

Sosioloq Üzeyir Şəfiyev bildirib ki, Azərbaycanı yaxın və uzaq perspektivdə demoqrafik baxımdan təhdid edən risklərə ciddi yanaşmaq vacibdir:

"Hazırkı mərhələdə demoqrafik təşviq siyasətinin gücləndirilməsi həyati əhəmiyyət daşıyır. Gələcəkdə əhalinin qocalması prosesi Avropa ölkələrindəki kimi sürətlə baş verməsin. Bunun üçün yeni ailə quranlara dövlət tərəfindən mənzil, məşğulluq və sosial təminat istiqamətində dəstək göstərilməlidir. Bu, həm əhali artımını təmin edəcək, həm də gənc nəsilin həyat keyfiyyətini yüksəldəcək. Dövlət tərəfindən bu sahəyə ayrılacaq əlavə resurslar, vergi güzəştləri və sosial proqramlar ailələri uşaq dünyaya gətirməyə təşviq edəcək".

Beləliklə, 2025-ci ilin statistik göstəriciləri və uzunmüddətli tendensiyalar göstərir ki, Azərbaycan üçün demoqrafik inkişaf məsələsi təkcə əhali sayının artımı ilə bağlı deyil, həm də iqtisadi, sosial və təhsil siyasətinə birbaşa bağlıdır. Ölkədə əhali artımını stimullaşdırmaq, gənc nəsli qorumaq və sosial-iqtisadi problemləri həll etmək istiqamətində strateji tədbirlərin görülməsi həyati əhəmiyyət kəsb edir.



## Saxta içkilərlə bağlı əhaliyə xəbərdarlıq

**Bayram günlərində spirtli içkilərin kütləvi istehlakını nəzərə alaraq, Qida Təhlükəsizliyi Agentliyi istehlakçıları diqqətli olmağa çağırır.**

Azərbaycan Qida Təhlükəsizliyi üzrə Dövlət Agentliyindən "Unikal"a verilən məlumata görə, qanunsuz yollarla saxta spirtli içki hazırlayıb insanların sağlamlığı və həyatı bahasına qazanc əldə etməyə çalışan "işbazlar"ın qanunsuz fəaliyyətlərinin qarşısının alınması istiqamətində Agentlik və hüquq-mühafizə orqanları tərəfindən mütəmadi qaydada yoxlama-nəzarət tədbirləri keçirilir və aşkar olunan qanunazidd hallarla bağlı ən sərt tədbirlər görülür.

Adətən, dələduzlar bu cür qanunsuz fəaliyyətlə gizli və qapalı məkanlarda məşğul olduğundan onların aşkarlanması və ifşa olunmasında vətəndaşların dəstəyi və bu istiqamətdə ictimai nəzarət mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, kustar üsullarla saxta spirtli içkilərin hazırlanmasında metil (metanol) spirtindən istifadə edilir. Zəhərlənməyə səbəb olan metil texniki və sənaye spirtidir, onun qida kimi istifadə edilməsi yolverilməzdir. Metil spirtinin az miqdarda qəbulu belə, orqanizmdə çox ciddi fəsadlara səbəb olur.

Qida üçün nəzərdə tutulmayan təhlükəli maddələrin spirtli içki məhsullarının hazırlanmasında istifadəsi qəti şəkildə yolverilməzdir. Həmçinin vətəndaşların həyat və sağlamlığına qəsd törətdiyi üçün cinayət məsuliyyəti yaradır.

İstehlakçıların bu məsələdə diqqətli olmaları tövsiyə olunur. Belə qanunsuz hallarla rastlaşdıqda aidiyyəti dövlət orqanlarına, o cümlədən Agentliyin "1003-Çağrı Mərkəzi"nə məlumat vermələri xahiş olunur. İctimai iaşə, satış və digər məkanlardan qida məhsulları alarkən məhsulun qablaşdırmasına, etiket məlumatlarına diqqət yetirsinlər, qida təhlükəsizliyi ilə bağlı müvafiq sənədləri tələb etsinlər.

## Abşeronda narkoman sürücü həbs edildi

**Abşeron rayonunda narkotikin təsiri altında avtomobil idarə edən sürücü həbs edilib.**



Modern.az xəbər verir ki, Abşeron Rayon Polis İdarəsinin Dövlət Yol Polisi Şöbəsinin əməkdaşları tərəfindən yol hərəkəti qaydalarını pozduğu üçün "Toyota" markalı, 77-KJ-867 dövlət qeydiyyat nişanlı nəqliyyat vasitəsinin sürücüsü Kamran Bədəlov saxlanılıb. Yoxlama zamanı sürücünün hərəkətləri şübhə doğurduğundan o, tibbi müayinədən keçirilib. Müayinə zamanı K.Bədəlovun narkotik vasitə qəbul etdiyi müəyyən olunub. Sürücü barəsində protokol tərtib edilərək məhkəməyə göndərilib.

Məhkəmənin qərarı ilə K.Bədəlov 20 sutka inzibati qaydada həbs edilib.

Həmin sürücünün bir müddət əvvəl də avtomobili narkotik vasitələrin təsiri altında idarə etdiyi üçün məsuliyyətə cəlb edildiyi bildirilir.

## Bu qərar gənclərin həyatını dəyişəcək

**"Elektron siqaretlərin Azərbaycanda idxalı, istehsalı, satışı və istifadəsinin qadağan olunması ilə bağlı qanunvericiliyə təklif olunan dəyişikliklər ictimai sağlamlıq baxımından əsaslandırılmış və vaxtında atılan addımdır".**



Bu barədə millət vəkili Tahir Mirkişili deyib.

Deputat bildirib ki, artıq 40-dan çox ölkədə bu məhsullar qadağan edilib:

"Elektron siqaretlər xüsusən yeniyetmələr və gənclər arasında nikotin asılılığının genişlənməsinə şərait yaradır. Dadlandırıcılar, cazibədar dizayn və marketinq siqaretə "zərərsiz alternativ" kimi yanlış təsəvvür formalaşdırır. Bunu əyləncə kimi təqdim edir və ilk istifadəyə giriş baryerini aşağı salır. Bu isə uzunmüddətli perspektivdə həm tütün məhsullarına keçidi, həm də nikotin asılılığının dərinləşməsini artırır. Bu məhsulların tərkibi və keyfiyyətinə nəzarət praktikada çətindir. Bazarda standartlardan kənar, qeyri-qanuni və mənşəyi şübhəli məhsulların dövriyyəsi geniş yayılıb. Nəticədə risk yalnız nikotinlə məhdudlaşmır. İnsan sağlamlığı üçün mənfi nəticələr yaradan kimyəvi qarışıqların istifadəsi ehtimalı yüksəlir. Tərkibində müxtəlif kimyəvi maddələr olan buxarların insan orqanizmə, xüsusilə də tənəffüs yollarına verəcəyi ziyanlar dünyada artıq sübut edilib".

Parlamentari bəyan edib ki, qadağa dövlətin iqtisadi və profilaktik səhiyyə siyasətinin məntiqi davamıdır:

"Xəstəlik yarandıqdan sonra müalicə xərclərini artırmaqdansa, risk faktorlarını məhdudlaşdırmaq daha effektiv və daha ucuz yanaşmadır. Bu qərar təkcə fərdi sağlamlığı deyil, həm də ailələrin sosial rifahını və əmək məhsuldarlığını qorumağa xidmət edir. Bu baxımdan, idxal-istehsal-satış-istifadə zəncirinin bütövlükdə qadağan olunması, xüsusilə gənclərin qorunması və uzunmüddətli səhiyyə yükünün azaldılması üçün məqsədyönlü, ictimai marağa uyğun qərardır. Bu həm də ölkədə insan kapitalının qorunmasına yönələn mühüm siyasətdir".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY

YENİ MÜSAVAT

Son səhifə

N 232 (8842) 20 dekabr 2025

Dekabr

## Bunları bilirsinizmi?

* Qarğalar qarışqaları əzib bədənlərinə sürtməklə parazitləri özlərindən uzaqlaşdırırlar.
* ABŞ-da prezident olmaq üçün əhalinin 27 %-nin səsini toplamaq kifayətdir.
* Kentukki dağlarında mavi dərili insanlar yaşayır.
* Onlayn sifariş verilən ilk şeylərdən biri pizza idi.
* Stephen Hawkings cəngavər olmaqdan imtina etmişdi.
* Çində yaşayan monqolların sayı Monqolustanda yaşayan monqolların sayından çoxdur.
* Əsir çitalar çox vaxt itlərlə yaşayır, çünki itlər onları sakitləşdirir.
* Samuray olan ilk əcnəbi Afrika quludur.
* Salvador Dali Disney üçün cizgi filmləri yaradıb.
* "Taxtların Oyunu"ndan sonra Arya ABŞ-da ən sürətlə böyüyən körpə adı olub.
* Yaponiyaya qızılbalıq suşi gətirən Norveç idi.
* Yellowstone altındakı vulkanik sistem 11 Böyük Kanyonu doldura bilər.
* Disneydə çoxları "The Lion King"in uğur qazanmayacağını düşünürdü. Bununla belə, hazırda ən çox gəlir əldə edən əllə çəkilmiş filmdir.
* Stubbs adlı pişik 15 ildir Alyaskanın Talkitna şəhərinin meridir.



## Niyə gündə mütləq 3 dəfə yemək yeməliyik?

**Gündə üç dəfə yeməkdən imtina insanın maddələr mübadiləsini pozaraq hormon balansına mənfi təsir göstərə və qida maddələrinin çatışmazlığına səbəb ola bilər. Milli.Az xəbər verir ki, bunu qastroenteroloq və endokrinoloq Viktoriya Gonçar bildirib. Həkim xüsusilə intervallı oruc kimi məşhur diyetləri izləyənlər və sıx qrafik səbəbindən yeməkləri qaçıran insanlara xəbərdarlıq edib:**

"Gündə yalnız bir və ya iki dəfə yemək orqanizmi stress vəziyyətinə salır, maddələr mübadiləsini yavaşladır və qəbul edilmiş kalorilər ehtiyat üçün saxlanılır. Bu isə sonradan artıq çəki yaranmasına gətirib çıxara bilər". Tam qidalanmadan imtina psixoemosional vəziyyətə də mənfi təsir göstərə bilər. Uzun fasilələrlə yemək qəbul etməmək qan şəkərinin səviyyəsinin kəskin düşməsinə səbəb olur, nəticədə insan yorğun və əsəbi olur, məhsuldarlığı azalır, işə diqqətini cəmləmək çətinləşir:

"Yeməklər arasında optimal interval yuxu vaxtı istisna olmaqla, üç-dörd saatdır. Belə fasilələr qan şəkərinin stabilliyini qorumağa və aclıq hissini nəzarətdə saxlamağa imkan verir. Daha uzun fasilələr isə həddindən artıq yemək riskini artırır. Bu yalnız fizioloji səbəblərlə bağlı deyil, psixoloji amil də rol oynayır. Məsələn, insana elə gələ bilər ki, səhər yeməyini və ya naharını qaçırdığı üçün daha böyük porsiyaya layiqdir".

Belə qidalanmanın digər təhlükəsi qida maddələrinin çatışmazlığıdır. Bir və ya iki yemək vasitəsilə kifayət qədər zülal, yağ, karbohidrat, vitamin və mineralları qəbul etmək çətin ola bilər.

# "Şaxta baba"ya inam uşaq psixikasına zərər vura bilər?



**"Şaxta baba"nın varlığına inanmaq uşaqların psixikasına zərər vermir, əksinə, azyaşlıların emosional və koqnitiv inkişafında mühüm rol oynayır. Bu qənaətə Perm Politexnik Universitetinin mütəxəssisləri gəliblər. Onların fikrincə, "Şaxta baba"ya inam uşaqlarda təxəyyülün inkişafına, emosional tənzimləməyə və özünəinam hissinin artmasına kömək edir. Bu, həmçinin yaxşılıq, ədalət və qayğıkeşlik haqqında təsəvvürləri də inkişaf etdirir.**

Alimlərin nəzərincə, belə ənənə yalnız psixoloji deyil, həm də mədəni və sosial əhəmiyyətə malikdir. O nəsillər arasındakı əlaqəni gücləndirir və ailəni ortaq hisslər və dəyərlər vasitəsilə birləşdirir. "Valideynlər üçün "Şaxta baba"ya inam, uşaqlarına qayğı göstərmək və onlarla xoş xatirələr yaratmaq üçün bir vasitə olur. Bu isə həm uşaqlar, həm də böyüklər üçün əhəmiyyətlidir", - deyə Perm Milli Tədqiqat Politexnik Universitetinin Fəlsəfə və Hüquq kafedrasının əməkdaşı, klinik psixoloq Mixail Suxoquzov bildirib.

İnkişaf psixologiyası baxımından, möcüzəyə ehtiyac erkən uşaqlıq dövründə, təxminən 5 yaşa qədər normal hesab olunur. Bu dövrdə uşaq hələ reallıqla fantaziyanı aydın şəkildə ayırd edə bilmir. Bununla belə, mütəxəssislər qeyd edirlər ki, "Şaxta baba" 3-4 yaşlı uşaqlarda tez-tez qorxu hissi yaradır. Məsələn, "Şaxta baba" libası geyinən şəxsin atası olduğunu bilməsi, uşağın narahatlıq hissini azalda bilər. Bəzən də, "Şaxta baba"ların əslində mövcud olmadığını bilmək, yəni bu sirrin açılması, uşaqda çaşqınlıq yarada və ya emosional reaksiyaya səbəb ola bilər.

Mütəxəssislər belə hesab edirlər ki, əgər uşaq bu barədə hələ sual verməyibsə, onunla "Şaxta baba" haqqında açıq söhbət aparmaq üçün ən uyğun dövr 9-10 yaşdır. Bu yaşda uşağa "Şaxta baba"nı bayram rəmzi, hədiyyə və digər "möcüzələrin" isə valideynlərin ona sevgisinin nəticəsi olduğunu izah etmək vacibdir.

# ABŞ-da sərnişin uçuş zamanı təyyarənin qapısını açmağa cəhd edib



**ABŞ-də sərnişin təxminən 5 500 metr yüksəklikdə uçan təyyarənin qapısını açmağa cəhd göstərib. Oxu.Az ABŞ mətbuatına istinadən xəbər verir ki, hadisə dekabrın 10-da Alyaskanın Dedxors şəhərindən Ankoricə uçan "Alaska Airlines"ın təyyarəsində baş verib. Hallüsinasiya vəziyyətində olan Kassian Uilyam Frederiks adlı sərnişin dəfələrlə təyyarənin arxa qapısını açmağa çalışıb. Şahidlərin sözlərinə görə, uçuş vaxtı o, özünü qeyri-adekvat aparıb və narahatedici ifadələr işlədib. Pəncərəni necə sındıra biləcəyini soruşub və ətrafdakılara həddindən artıq içki qəbul etdiyini deyib. Daha sonra dərman qəbul edib və davranışı bir az da pisləşib. Sərnişinlərdən üç nəfər K.Frederiksi tutub saxlayaraq, uçuşun sonuna qədər buraxmayıblar. Ekipaj təcili eniş etmək istəsə də, pilotlar uçuşu davam etdirmək qərarına gəliblər.**

Təyyarə eniş edəndən sonra K.Frederiks xəstəxanaya aparılıb və həkimlərə 9-10 gündən bəri spirtli içki qəbul etdiyini deyib. Eyni zamanda, trazodon adlı dərmanı qəbul etdiyini və ömrünün son iki ilini xatırlamadığını bildirib. K.Frederiksə qarşı heyət üzvlərinin işinə müdaxilə ilə bağlı ittiham irəli sürülüb. Onu uzunmüddətli həbs cəzası gözləyir. Eyni zamanda, şirkət sərnişinə "Alaska Airlines" xidmətindən istifadəyə qadağa qoyub.

## Hindistanda dostlar dəyəri 50 min dollardan çox olan nadir yaşıl almaz tapıblar



**Hindistanda iki dost 50 min dollardan çox dəyəri olan nadir yaşıl almaz tapıb. Məlumata görə, 24 yaşlı Satiş Hatik və 23 yaşlı Sacid Məhəmməd bu qiymətli daşı Panna regionunda tapıblar. Sözügedən region almaz yataqları ilə yanaşı, yüksək yoxsulluq səviyyəsi ilə də tanınır. Onlar tapdıqları almazı rəsmi şəhər qiymətləndiricisinə təhvil veriblər. Ekspert Anupam Sinqh daşın həqiqiliyini təsdiq edib. Almazın çəkisi 15.34 karatdır və keyfiyyəti onu ən yüksək zərgərlik kateqoriyasına daxil etməyə imkan verir. Son qiymət dünya bazarındakı cari kotirovkalardan asılı olacaq. Hindistan qanununa görə, icarəyə götürülmüş torpaqlarda tapılan bütün almazlar dövlətə təhvil verilməli və rəsmi hökumət hərracında satılmalıdır.**

## Tramp marixuananın istifadəsinə dair məhdudiyyətləri yumşaltdı



**ABŞ Prezidenti Donald Tramp ABŞ-də federal səviyyədə marixuananın istifadəsinə dair mövcud məhdudiyyətlərin yumşaldılmasını nəzərdə tutan fərman imzalayıb. Oxu.Az TASS-a istinadən xəbər verir ki, bu barədə prezident sənədi imzalamazdan əvvəl Ağ Evin Oval kabinetində açıqlama verib. "Bu gün marixuananın tibbi məqsədlər üçün istifadəsinin əsaslı sayıldığı tənzimlənən maddələrin birinci kateqoriyasından üçüncü kateqoriyasına keçirilməsini nəzərdə tutan icra fərmanını imzalayacağımı elan etməkdən məmnunam", - deyə dövlət başçısı bildirib. ABŞ prezidenti vurğulayıb ki, bu, marixuananın hər hansı formada leqallaşdırılması demək deyil və onun istirahət məqsədli narkotik vasitə kimi istifadəsinə heç bir şəkildə icazə vermir".**

Qeyd olunur ki, üçüncü kateqoriyaya birinci və ikinci kateqoriyaya daxil olan maddələrlə müqayisədə daha az fiziki və ya psixoloji asılılıq yarada bilən preparatlar daxildir.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazìm SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhərì, R.Rüstəmov küçəsì 2528-cì məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emìl SALAMOĞLU

"Yenì Müsavat"ın kompüter mərkəzìndə yığılıb, səhìfələnìb, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar gerì qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lìsenziya N: B 114
SAYI: 1.500